www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 fevral 2016-cı il Çərşənbə axşamı № 30 (6351) Qiymәti 60 qәpik

**Xəbər**

## Bakıda dəhşətli qətl - baba nəvəsinin cinsiyyət orqanını kəsdi

yazısı səh.2-də

**Gündəm**

### Avropa İttifaqı yolunu Qarabağdan salır, yoxsa...



Bölgədə böyük maraqları olan nüfuzlu beynəlxalq təşkilatın münaqişə ocaqlarının söndürülməsi işinə girişəcəyi ehtimalı var...

yazısı səh.13-də

### Dilqəm və Şahbaz ailələri ilə canlı ünsiyyət quracaq

yazısı səh.3-də

### "Ramil Səfərov işi"ndə ermənilərə uduzmamaq üçün nə etməli...

yazısı səh.4-də

### Gədəbəyli iş adamı icra başçısı Ramiz Yediyarovdan şikayətçidir

yazısı səh.11-də

### "Kənd təsərrüfatına ayrılan vəsaitlər yerli məmurlar tərəfindən mənimsənilib"

yazısı səh.12-də

### Ekologiya və təbii sərvətlər naziri Daşkəsəndə görüş keçirdi

yazısı səh.3-də

### Rusiya Dövlət Duması niyə Xocalı soyqırımını tanımır?

yazısı səh.4-də

### "Sədərək"də ticarətçilərə 30 faizlik güzəşt

yazısı səh.10-da

### Azərbaycanda lotereya bileti ilə milyonçu olmaq mümkündürmü...

yazısı səh.15-də

### Ölkəmizə külli miqdarda narkotik keçirən iranlı yaxalandı

yazısı səh.14-də

### Boş qalan dairədə deputat seçkisi nə vaxt olacaq?

yazısı səh.3-də

### Ərzaq yenə bahalaşdı - qiymət təzə, səbəb köhnə...

yazısı səh.15-də

## Sabiq naziri qazanmaq uğrunda gizli savaş...

# ƏLİ İNSANOV - MÜXALİFƏTİN VAHİD LİDERİ - "NİYƏ DƏ YOX!"

Məhbəsdəki nazirin azadlığa çıxmasına 8 ay qalır; onunla bağlı sensasion iddialar var; müxalif düşərgə gözünü 13 saylı "zon"a dikib; sabiq nazir "çıxan kimi bunlarla savaşa başlayacam", - bəyanatını hər gün təkrar edir...




yazısı səh.5-də

## Şimaldan Bakıya yeni təhdid - köhnə "erməni kartı" təzədən "dizayn" edilir

Moskva Ankara ilə soyuq savaşa Azərbaycanı da qatmağa çalışır; 1921-ci il Rusiya-Türkiyə dostluq müqaviləsinin ləğvi təşəbbüsünün arxasında duran məkrli niyyət və hədəflər...

yazısı səh.7-də



### Elmira Axundovanın mandatdan məhrum edilməsi məsələsi qaldırıldı

yazısı səh.3-də



*Pənah Hüseyn:*

### "Əvvəl-axır dialoq istiqamətində addımlar atılacaq"

yazısı səh.6-da



*Professor İlham Rəhimov:*

### "Rusiya-Türkiyə münasibətlərinin hazırkı durumu Qarabağ məsələsini dalana saldı"

yazısı səh. 8 və 9-da



## İlham Əliyev sədr müavinini işdən çıxardı

**Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini dəyişib. APA-nın məlumatına görə, Prezident İlham Əliyevin sərəncamı ilə Qurban Nəzirov Azərbaycan Dəmir Yolları QSC sədrinin müavini vəzifəsindən azad edilib.**

Dövlət başçısının digər sərəncamı ilə Hicran Valehov Azərbaycan Dəmir Yolları QSC sədrinin müavini təyin edilib.

## Robert Sekuta: "...Barışıq səyləri ilə irəliləmək lazımdır"



**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta "Xocalı anım qrupu"nun üzvləri ilə görüşüb. ABŞ səfirliyinin facebook səhifəsində yayılmış məlumata görə, Robert Sekuta facia haqqında fikirləri eşitmək üçün belə bir görüş keçirib.**

"Keçmiş faciələr yad olunmalıdır və təkrar faciələrin qarşısını almaq üçün barışıq səyləri ilə irəliləmək lazımdır", o bildirib.

R.Sekuta Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində bütün tərəflərin addımlar atmaq zərurətini qeyd edib.

## Keçmiş MTN əməkdaşlarının həbs müddəti artırıldı

**Keçmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) oktyabr ayında həbs edilən 6 əməkdaşı barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin uzadılması prosesinə başlanılıb.**

"Report"un əldə etdiyi məlumata görə, Baş Prokurorluq tərəfindən keçmiş MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyev, MTN Monitorinq Mərkəzinin əməkdaşları Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizov və Teymur Quliyev barələrində vəsatətlər Səbayeil Rayon Məhkəməsinə təqdim olunub.

Həmin şəxslər barəsində həbs-qətimkan tədbirinin uzadılmasına start verilib.

Həbs edilmiş şəxslər barəsində həbs müddəti daha dörd ay artırılıb.

Qeyd edək ki, 2015-ci il oktyabr ayının 20-də Baş Prokurorluğun yaydığı məlumata görə, keçmiş Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb.

## İki gün ərzində Azərbaycanda 193 cinayət törədilib

**Ötən həftənin son iki günündə Azərbaycanda 193 cinayət faktı qeydə alınıb."Report" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, daxili işlər orqanları fevralın 6 və 7-də qeydə alınan 193 cinayətdən 57-nin üstünü "isti izlər"lə açıb, 94 nəfər tutulub.**

Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 26 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib.

Azərbaycanın avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb, 7 nəfər yaralanıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 18, qanunsuz saxlanılan silah-sursatla bağlı 3 fakt müəyyən edilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı slıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# ABŞ kəşfiyyat mərkəzi ordumuzun strateji yüksəkliyi tutmasını qeydə aldı

**Azərbaycan ordusunun Ermənistanla sərhəddə, Qazax rayonu istiqamətində strateji əhəmiyyətli Odundağ yüksəkliyinə nəzarəti təmin edərək orada möhkəmlənməsi ABŞ özəl kəşfiyyat araşdırmaları mərkəzi "Stratfor"un diqqətini cəlb edib.**



Virtualaz.org xəbər verir ki, Mərkəzi Kəşfiyyat İdarəsinin "kölgəsi" hesab olunan mərkəz Azərbaycan-Ermənistan sərhədi boyu vaxtaşırı olaraq kiçikmiqyaslı döyüşlərin baş verməsini gözardı etməməyə çağırır.

"Ötən ilin sonunda Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Tavuş bölgəsi arasında atışmalar gücləndi. Sərhədin bu hissəsində relyef mürəkkəbdir, minalar ərazini daha da təhlükəli edir. Mövcud nəqliyyat dəhlizləri vaxtaşırı monitorinq olunur, ancaq tərəflər tez-tez bir-birinə hədə-qorxu gəlir, bəzən də digərinin sərhəd ərazisini tuturlar",-"Stratfor" bildirir.

Mərkəz qeyd edir ki, dekabrın sonu, yanvarın əvvəlində də oxşar hadisə baş verib. Azərbaycan əsgərləri Ermənistanın Tavuş vilayətinin şimalında erməni qüvvələrinə doğru manevr ediblər. Bu toqquşmalar münaqişənin birbaşa komponenti olmadığına görə, monitorinq missiyaları onları nadir hallarda izləyir.

"Azərbaycan ordusu Odundağ yüksəkliyində postunu bərpa etdiyini bildirib. Regiondan gələn xəbərlər də bu iddianı təsdiqləyənə bənzəyir. Azərbaycanın əslində o mövqedən niyə çəkildiyi də aydın deyil. Amma Ermənistan Qazağa gedən təchizat xətlərini kəsməklə Azərbaycan əsgərlərini geri çəkilməyə məcbur etmək istəyirdi. Azərbaycan ordusunun öz mövqeyini gücləndirdiyi barədə məlumatlar var. Bu yüksəklik ətrafdakı ərazilərə nəzarət baxımından vacibdir. Ən əsası, post Ermənistanın H26/M1 magistralına nəzarət imkanı verir... Bu strateji mövqe Azərbaycan-Ermənistan münaqişəsində, kiçik də olsa, bir dəyişiklik yarada bilər",-"Stratfor" bildirir.

Xatırladaq ki, Azərbaycan ordusunun Ermənistanla sərhəddə yerləşən Odundağ yüksəkliyində möhkəmlənməsi və orada yerləşən monastıra silah-sursat cəmləşdirməsi barədə əvvəlcə sərhədyanı kəndlərin sakinlərinə istinadən erməni mənbələri xəbər yayıb. Daha sonra Azərbaycan Müdafiə Nazirliyi ordumuzun bu strateji yüksəkliyə nəzarət etdiyini təsdiqləyib.

"Həmin yüksəklik əlverişli və əhəmiyyətli olduğu üçün bölmələrimiz tərəfindən nəzarətə götürülüb, taktiki və mühəndis-istehkam baxımından gücləndirilib", - deyə Müdafiə Nazirliyi bəyan edib.

Odundağ yüksəkliyi Ermənistanın Noemberyan rayonu ilə Azərbaycanın Qazax rayonunun sərhədində - Bağanis kəndi yaxınlığında yerləşir.



## Azad Rəhimov: "Azərbaycanda "Formula-1" yarışları 5 il məcburi keçirilməlidir"

**"Müqavilə 10 illik bağlanıb. Müqaviləyə əsasən, Azərbaycanda "Formula - 1" yarışları 5 il keçirilməlidir. Azərbaycan 5 il ərzində qərar versə ki, bu yarış keçirilməsin, onda biz cərimə ödəməliyik".**

APA-nın məlumatına görə, bunu gənclər və idman naziri Azad Rəhimov deyib.

A. Rəhimov bildirib ki, 10 illik müqavilənin növbəti 5 ilində isə Azərbaycan öz istəyinə əsasən yarışı ya keçirə, ya da dayandıra bilər: "Ancaq ilk 5 ildə keçirilməlidir. Hazırda yarışın büdcəsi 12 milyon dollardır. Bu yarışın büdcəsi hər il ödənən haqq və təşkilatı xərclərdən ibarətdir, bunun da açıqlaması olacaq. Heç nə gizli qalmayacaq".



## Sabiq təhsil naziri yenidən əməliyyat olunacaq

**Sabiq təhsil naziri, professor Firudin Cəlilov yenidən əməliyyat olunmaq üçün Türkiyəyə gedib. Musavat.com xəbər verir ki, sabiq nazir bu barədə özü məlumat verib. Hazırda Ankarada olan F.Cəlilov Bayındır Hospitalda əməliyyat olunacaq.**

Bundan əvvəl də səhhətində problemlər yaranan F.Cəlilov bir neçə dəfə müalicə üçün Ankara şəhərində olub. F.Cəlilov bir müddət əvvəl də eyni xəstəxanada uğurlu əməliyyat keçirmişdi.

Sabiq nazirin səhhəti ilə bağlı problemləri 2014-cü ildən başlamışdı. Ürəyindən və ayağından əməliyyat olunan F. Cəlilovun müalicə xərclərini Azərbaycan hökuməti öz üzərinə götürüb.

Qeyd edək ki, Əbülfəz Elçibəy prezident olan dövrdə Firudin Cəlilov baş nazirin müavini və təhsil naziri vəzifələrində çalışıb.

## Bakıda dəhşətli qətl - baba nəvəsinin cinsiyyət orqanını kəsdi

**16 yaşlı gənc babası tərəfindən amansızlıqla qətlə yetirilib. AzNews.az xəbər verir ki, hadisə Binəqədi rayonunda qeydə alınıb. 2000-ci il təvəllüdlü Bayramov Tural Mübariz oğlu Bakıda qətlə yetirilsə də o, Ağdam rayonunun Çəmənli kəndində dəfn olunub.**

T.Bayramovun ölümündə babası Rafiq Bayramov şübhəli bilinib və saxlanılıb. Çəmənli kənd məzarlığında tibbi ekspertiza qrupu meyitə baxış keçirib.

T. Bayramovun amansızlıqla qətlə yetirildiyi, qulağının, burnunun, dodağının və cinsiyyət orqanının kəsildiyi deyilir. Təqsirləndirilən şəxs Ağdam Rayon Polis Şöbəsində Binəqədi Rayon Prokurorluğunun əməkdaşları tərəfindən dindirilib.

APA.az xəbər verir ki, Ağdam rayonunda araşdırma aparan Binəqədi Rayon Prokurorluğunun əməkdaşlarının şübhəli şəxs qismində saxladığı Rafiq Bayramov törətdiyi cinayəti etiraf edib.

R. Bayramov izahatında qeyd edib ki, nəvəsi Tural Bayramovu öz bacısına satışdığı üçün qətlə yetirib.

Cinayətin başvermə səbəbləri araşdırılır.

## Azərbaycanda jurnalistin qardaşı avtoqəzada öldü

**Fevralın 8-də səhər saatlarında Quba rayonu ərazisində dəhşətli yol qəzası baş verib. Yol qəzasına düşən avtomobildəki sərnişinlərdən Anar Akif oğlu Ağayev dünyasını dəyişib, onun qardaşı Arzuman Akif oğlu Ağayev ağır vəziyyətdə Quba Mərkəzi Xəstəxanasına yerləşdirilib.**

Qeyd edək ki, hər iki şəxs modern.az saytının əməkdaşı Ağa Akifoğlunun qardaşlarıdır. Dünyasını dəyişən A.Ağayev ailəlidir, iki övladı var.

Quba Rayon Mərkəzi Xəstəxanasının Qəbul şöbəsinin həkiminin modern.az saytına verdiyi məlumata görə, Anar Ağayev xəstəxanaya daxil olarkən vəfat edib, digər qardaş Arzuman isə sağ budun sınığı diaqnozu ilə xəstəxanaya yerləşdirilib, vəziyyəti kafidir.

## Çin Rusiyaya qarşı sanksiyalara qoşuldu

**Çinin bütün bankları Rusiyaya qarşı iqtisadi sanksiyalara qoşulub. Ölkə.az Rusiya KİV-lərinə istinadən xəbər verir ki, Çinin bankları ABŞ-dakı tərəfdaşlarının etibarını itirməmək üçün Rusiyaya qarşı tətbiq olunmuş sanksiyalara qoşulublar. Çin banklarından yalnız ikisi "Exsimbank" və "Chine Development Bank" hələlik Rusiya ilə maliyyə əməliyyatları həyata keçirəcək.**

Rusiyalı ekspertlər bunu "çinlilərin mentalitetini bilmədikləri, onların xarakterinə bələd olmadıqları" ilə əlaqələndiriblər. Xatırladırıq ki, 2015-ci ildə Çinlə Rusiya arasında bağlanmış sazişlərin böyük əksəriyyəti kağız üzərində qalıb.

## Martın 9-da bu ilin tam Günəş tutulması baş verəcək

**Martın 9-da bu ilin tam Günəş tutulması baş verəcək. Azərbaycan Milli Elmlər Akademiyasından verilən məlumata görə, cari ilin ilk Günəş tutulması hadisəsi martın 9-da baş verəcək. Tutulma Bakı vaxtilə saat 03:20 radələrindən başlayaraq, 05:57-dək davam edəcək. 2016-cı ilin Günəş tutulmasının tam fazası Yerin ekvatorial hissəsində görünəcək. Bu tutulma zamanı Ayın kölgəsi əsasən Hind və Sakit okeanların üzərindən keçərək, Cənub-Şərqi Asiya və Avstraliyanın şimal-şərq hissələrində görünəcək.**

Təbiət hadisəsi zamanı səmada "gündüz ulduzunun" ətrafında möhtəşəm mənzərə yaranacaq, Merkuri və Venera öz parlaqlığıyla xüsusi fərqlənəcək. Tutulma Azərbaycanda müşahidə olunmayacaq.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Elmira Axundovanın mandatdan məhrum edilməsi məsələsi qaldırıldı

## Ölkə prezidentinə kollektiv müraciət qəbul olundu...

**Deputat Elmira Axundovanın mandatdan məhrum edilməsi üçün prezident İlham Əliyevə müraciət qəbul olunub.**

**Ziya Fərhad oğlu Vəliyev, Elvin Elşad oğlu Vəliyev, Fərman Xeyrulla oğlu Məmmədov, Sabir Fərhad oğlu Ağayev, Aybəniz Qüdrət qızı Abdullayeva, Ramin Elşad oğlu Vəliyev, Zeynəb Xeyrulla qızı Məmmədova, Fərhad Sabir oğlu Ağayev, Püstəxanım Rahib qızı Ağayeva, İradə Tanrıverdi qızı Hüseynova, Nailə Hikmət qızı Ağayeva, Afət Əsgər qızı Cavanşirova, Sona Fərhad qızı Vəliyeva, Rəşid Höcətulla oğlu Əmirov, Yaqut Əlisaab qızı Vəliyeva və Elşad Abdulhəmid oğlu Vəliyevin imzaladığı kollektiv müraciətdə deyilir:**

"Möhtərəm prezident! Konstitusiyasının 89-cu maddəsinin 4-cü hissəsinə əsasən, Milli Məclisinin deputatı dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) mandatından məhrum edilir. Bildiririk ki, deputat Elmira Axundova Konstitusiyaya zidd olaraq kommersiya və sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Belə



Elmira Axundova

ki, Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 14.08.2015-ci il tarixli 25/24-01707 saylı məktubuna əsasən Bakı şəhəri, Nəsimi rayonu, N.Yusifbəyli küçəsi 72 ünvanda inşa edilən qeyri-yaşayış obyektinin sifarişçisinin Elmira Hüseyn qızı Axundova olduğu müəyyən edilib. ƏMDK DƏDRX-nın Bakı Şəhər Ərazi İdarəsinin 17.10.2015-ci il tarixli məktubuna əsasən Bakı şəhəri, Nəsimi rayonu N. Yusifbəyli küçəsi 72 ünvanda inşa edilən qeyri-yaşayış obyektinin mülkiyyətçisi Elmira Axundovadır. Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin 05.09.2015-ci il tarixli məktubuna əsasən, deputat Elmira Axundovanın adına 2006-cı il buraxılışlı Az 90 FN 684 dövlət nömrə nişanlı "Hyundai Sonata" minik avtomobili, 2012-ci il buraxılışlı Az 10 LS 050 dövlət nömrə nişanlı "Audi Q7" minik avtomobili, 2015-ci il buraxılışlı Az 90 HH 111 dövlət nömrə nişanlı "Toyota Prado" minik avtomobilinin olduğu müəyyən edilib. Hesab edirik ki, həmin avtomobilləri sahibkarlıq fəaliyyətindən qazandığı vəsait hesabına əldə edib. Eyni zamanda "Abşeron" MTK-nın 03.02.2016-cı il tarixli məktubuna əsasən, "Port Baku Residence" yaşayış kompleksində 1109 B saylı mənzil Elmira Axundovaya məxsusdur. Göstərilənləri nəzərə alaraq Elmira Axundovanın əməlinə hüquqi qiymət verib onun Konstitusiyasının 89-cu maddəsinin 4-cü hissəsinə əsasən Milli Məclisin deputatı mandatından məhrum edilməsi barədə qərar qəbul edilməsi üçün müvafiq qaydada tədbirlər görülməsini kollektiv şəkildə Sizdən xahiş edirik".

"Yeni Müsavat"ın əməkdaşı qəbul olunmuş müraciətlə bağlı deputatın münasibətini öyrənməyə çalışıb. Lakin deputatın telefonu qapalı olduğundan cəhdimiz baş tutmayıb. Bununla belə, müraciətə deputatın da münasibətini dərc etməyə hazırıq.

Qeyd edək ki, deputatın oğlu Həbib Axundovun adı 7-8 milyonluq dələduzluq qalmaqalına qarışıb. Prezidentə kollektiv müraciət qəbul edən vətəndaşların əksəriyyəti həmin iş üzrə zərərçəkənlərdir. Bu məsələ qalxandan sonra H.Axundov FHN-dən işdən çıxarılıb. Dələduzluq faktı ortada olsa da, istintaq yerində sayır.

❑ **E.HÜSEYNOV**



# Ekologiya və təbii sərvətlər naziri Daşkəsəndə görüş keçirib

**Fevral ayının 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov Daşkəsən rayonunda ictimaiyyət nümayəndələri ilə görüşüb.**



Görüşdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, ictimaiyyətin nümayəndələri, sahibkarlar və Daşkəsən rayonundan seçilmiş millət vəkili Rövşən Rzayev də iştirak edib.




Rayon icra hakimiyyətinin inzibati binasında keçirilən tədbiri giriş sözü ilə açan **Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev** rayonda görülən işlər və nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda əhali ilə görüşləri davam edir: "Bu gün həmin tapşırığa uyğun olaraq ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov rayonumuza ictimaiyyət nümayəndələri ilə görüşə gəlib. Məqsəd aidiyyəti üzrə mövcud problemlərlə yerindəcə tanış olmaq və onların həlli yollarının müzakirəsini biz daşkəsənlilərlə birlikdə aparmaqdır. Biz bugünkü görüşün yüksək səviyyədə keçməsini arzulayır və inanırıq ki, ölkə başçısı çox hörmətli cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində bundan sonra da Daşkəsən rayonunda bu sahədə müəyyən mövcud olan problemlər öz müsbət həllini tapacaq".

Açıq dialoq şəraitində keçən görüşdə ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov çıxışında bildirib ki, ölkədə uğurla həyata keçirilən, ölkənin inkişafına və modernləşdirilməsinə hədəflənmiş səmərəli dövlətçilik siyasəti nəticəsində ciddi uğurlar qazanılıb. Bu uğurların təməlində düşünülmüş siyasət, sabitlik, iqtisadi islahatlar dayanır.

H.Bağırov yeni iş yerlərinin açılması məqsədilə Daşkəsən rayonunda yerli şəraitə uyğun ağac cinslərinin yetişdirilməsi üçün tinglik təsərrüfatlarının yaradılması ilə bağlı nazirliyin aidiyyəti qurumlarına tapşırıq verib.

İctimaiyyətlə görüşdə rayon sakinlərinin təklif və müraciətləri də dinlənilib. Sonda tədbir iştirakçıları, xüsusən də sahibkarlar regionlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Dilqəm və Şahbaz ailələri ilə canlı ünsiyyət quracaq

**"Erməni girovluğunda olan Dilqəm və Şahbaz ailələri ilə "Skype" vasitəsilə danışa biləcək". APA-nın Qarabağ müxbirinin xəbərinə görə, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Ağdama səfəri zamanı deyib.**



**Ə.Həsənov** Dilqəm Əsgərov və Şahbaz Quliyevin girovluqdan qaytarılması məsələsini Cenevrədə Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti ilə müzakirə etdiyini də bildirib: "Mən bu yaxınlarda Cenevrədə beynəlxalq tədbirdə idim. Orada məhz girovlarımızın məsələsinə görə Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti ilə görüşdüm. Məsələni onunla müzakirə etdim. O da söz verdi ki, bu işlə daha ciddi məşğul olacaq. Ermənilər onları asanlıqla verməyəcəklər. Çünki Dilqəm Əsgərov və Şahbaz, həmçinin rəhmətlik Həsən ermənilərə elə bir zərbə vurub ki, o zərbənin yeri sağalmır. Ona görə ermənilər prinsipə düşüb onları qaytarmaq istəmirlər. Bizdə nə qədər erməni əsir var, hamısını təklif edirik, dəyişmirlər. Bütün beynəlxalq təşkilatlar hamısı qalxdı ayağa ki, bu, qanunsuz hərəkətdir, yenə də qaytarmırlar. Yəni bu çətinliklər var. Mən Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidentindən xahiş etdim ki, heç olmasa Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailə üzvləri ilə "Skype" vasitəsilə canlı danışmasını təşkil etsinlər. O da söz verib, məşğuldurlar. Yəqin ki, yaxınlarda onu edəcəyik".

**Ə.Həsənov Azərbaycan prezidenti İlham Əliyevin Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailələrini evlə təmin etdiyini bildirib:** "Ermənilərin qətlə yetirdiyi Həsən Həsənovun ailəsinin isə onlara münasib ərazidə evlə təmin olunması üçün iş aparılır".

Xatırladaq ki, Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev 2014-cü ilin iyul ayında Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurublar. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

# Boş qalan dairədə deputat seçkisi nə vaxt olacaq?

## Çingiz Əsədullayevin yeri hələ də boş saxlanılır

**Mərkəzi Seçki Komissiyası (MSK) səsvermənin nəticələri ləğv olunan 90 saylı Ağdaş seçki dairəsində təkrar seçkilərin keçirilməsi məsələsinə Konstitusiya Məhkəməsinin noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərin yekunlarına dair qərarından sonra baxılacağını açıqlamışdı. Konstitusiya Məhkəməsinin seçkinin nəticələrini təsdiq etməsindən 3 aya yaxın vaxt keçir. Yeni Milli Məclis ilk tətilini də başa vurub və ikinci sessiyasına başlayıb.**



90 saylı dairədə təkrar seçkilərin nə vaxt keçiriləcəyi, ümumiyyətlə, bu dairədə təkrar seçkilər olub-olmayacağı barədə isə hələ heç bir rəsmi açıqlama verilmir. MSK-nın Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli "Yeni Müsavat"a bildirib ki, 90 saylı Ağdaş seçki dairəsində təkrar seçkilərin nə vaxt keçirilməsi barədə hələ qərar verilməyib: "Hələ ki bu barədə qərar və məlumat yoxdur. Qərar verildikdən sonra Mərkəzi Seçki Komissiyası həmin dairədə təkrar seçkinin təşkili üçün qanunda nəzərdə tutulan işləri həyata keçirəcək".

Qeyd edək ki, Seçki Məcəlləsinin 176-cı maddəsinə görə, nəticələri ləğv edilən və ya hansısa səbəbdən deputatsız qalan dairədə bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər təyin edilməlidir. Konstitusiyanın 87-ci maddəsində isə qeyd olunur ki, parlamentin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, hər hansı səbəbdən deputatsız qalan dairələrdə seçkilər keçirilmir.

Ancaq Azərbaycan təcrübəsində müxtəlif səbəblərə görə deputatsız qalmış dairələrdə təkrar seçkilər keçirilmədiyi də məlumdur. 2010-cu ildə formalaşmış parlamentin nümunəsində bunu sübut edən 4 fakt var. Əli Əhmədov, Mübariz Qurbanlı yüksək vəzifələrə təyinat aldıqları üçün deputat mandatlarına xitam verilmişdi. Gülər Əhmədov həbs edildiyi üçün deputat mandatına xitam verilmişdi. Hikmət Atayev dünyasını dəyişdiyi üçün onun da seçildiyi dairə deputatsız qalmışdı. Bu dairələrin heç birində təkrar seçkilər keçirilmədi. Odur ki, 90 saylı dairədə də təkrar seçkilər keçirilməsə və Ağdaş camaatı beş il deputatsız qalsa, təəccüblənməmək gərək.

Onu da xatırladaq ki, sözügedən dairədən "Azəriqazbank"ın Müşahidə Şurasının sədri Çingiz Əsədullayev üçüncü dəfə deputat mandatı qazanmışdı. Lakin MSK dairədə seçki pozuntularının olduğunu əsas göstərərək nəticələri ləğv etdi.

Ötən həftə isə hakimiyyətin 90 saylı dairədən beynəlxalq təşkilatlarla əlaqəsi olan QHT rəhbərlərindən birini deputat seçdirəcəyi ilə bağlı informasiya yayılıb.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016



# Hökumətin antiböhran proqramı varmı?

Hüseynbala SƏLİMOV

**Təəssüf ki, bu xüsusda sistemli şəkildə yalnız özünə diqqət çəkməyə cəhd edən kiçik partiyalar danışır. Sözsüz ki, böhran başlayan andan hökumət özü də bir sıra addımlar atıb və atmaqdadır.**

Amma bunlar bir az da əvvəl, hələ ötən il, böhranın ilk mərhələsi başlayan zaman olmalı idi. Doğrusu, Avropa idman oyunları ölkəni bir az gecikdirdi. O vaxt hökumət də, cəmiyyət də yüngül şok yaşadı, fəqət, ondan adekvat nəticə çıxarmadı.

Halbuki hələ o vaxtlar bəzi qonşu ölkələr, məsələn, Rusiya və Qazaxıstan milli valyutanın "üzən məzənnə"sinə keçmişdilər. O vaxt tədbirlər görülməyə başlasaydı bəlkə də manatın kursunu saxlamaq üçün sərf edilən bir xeyli vəsait qənaət ediləcəkdi...

İndi müəyyən işlər görülüb və görülməkdədir. Prezidentin yanında sahibkarlara kömək üçün apelyasiya şurası yaradıb, maliyyə nəzarəti palatası təsis edilib, gömrük sahəsində müəyyən addımlar atılıb, texnologiya avadanlıqları idxal edən sahibkarlar üçün gömrük və vergi rüsumları nəzərdə tutulub, insanların maaşlarının, təqaüdlərinin və sosial müavinətlərin 10 faiz artırılmasına qərar verilib, böyük özəlləşdirmənin anonsu edilib...

Sadalayanda görürsən ki, müəyyən qədər iş görülüb və ya görülməsi planlaşdırırlar. Amma bunlar ölkənin böhrandan tez və böyük itkilər olmadan çıxması üçün yetərlidirmi? BVF kimi qurumlar artıq indidən hökumətin addımlarını təqdir edən bəyanatlar yayır. Fəqət, yekun söz yerli insanındır, o, özünün büdcəsində stabilləşməni hiss edirsə və onun üçün şok dövrü çəkilirsə, bəli, onda demək olar ki, vəziyyət elə də qorxulu deyil. O insan isə hələ şokun ilk zərbəsindən ayılmağa cəhd edir...

İndilər daha çox gözləntilər var. Neftlə bağlı da ümidlər səngimir. Halbuki prezident səviyyəsində də deyilib ki, ölkə artıq post-neft dövründə yaşamağa başlayır.

Amma OPEK ölkələri, Rusiya və digər neft ixracatçıları neftin qiymətini artırmaq üçün aramsız cəhdlər edirlər. Bəzi məlumatlara görə, səylər əbəs yerə də edilmir, ilkin razılaşma istisna olunmur.

Ona görə də nə qədər deyilsə də, nə qədər yazılsa da, cəmiyyət neftlə vidalaşmaq əzmində deyil. Hətta bu yaxınlarda bilavasitə aidiyyatı qurumlar səviyyəsində deyildi ki, böyük ehtimalla ilin sonuna qədər neftin barelini 60 dollara qaldırmaq mümkün olcaq.

Qərəz, neftdən gözləntilər hələ də böyükdür. Amma onlar doğrulmaya da bilər. Ona görə də iqtisadiyyatda post-neft tədbirləri müstəsna əhəmiyyət kəsb edir. Onsuz da nə vaxtsa onları həyata keçirmək lazım gələcək. Elə bu səbəbdən də nə qədər tez olsa, bir o qədər yaxşıdır...

Hələliksə böhranın ağır və üzücü fəsadlarını yaşamaq lazım gəlir. Maraqlısı odur ki, bu gün daha çox xırda və orta ticarətlə məşğul olanlar, xırda və orta sahibkarlar etiraz edir, bir də ki, banklar təlatümlü günlər yaşayır.

Hərçənd işsizlik və bahalıqla bağlı ümumi etirazlar da az deyil, gah bu, gah da başqa bölgədə etirazlar baş verir.

Kiçik ticarətlə məşğul olanlar dəfələrlə etiraz edib, icarə haqları endirilməyənə qədər satışı bərpa etməyəcəklərini bildiriblər.

Cavab kimi bir neçə rayonda bazarlarda icarə haqları donduruldu, mərkəzdə isə onların aşağı salınması nəzərdə tutuldu. Hiss olunur ki, güzəşt limiti tükənməyib, hökumət kiçik və orta biznesə dəstək kimi hələ onların tətbiqini davam etmək niyyətindədir...

Bir məsələ də var ki, onu qeyd etməmək olmur. Hamı kiçik, orta və böyük sahibkarlığa dəstəkdən danışır. Olsun. Fəqət, insanlar var ki, sahibkar deyillər, adi alıcı, istehlakçı, müəllim və ya ziyalıdırlar... Onlara kim dəstək verəcək? Böhranın ilk günlərindən qiymətlər astronomik həddə qalxdı. Birmənalı şəkildə demək olar ki, insanların alıcılıq qabilliyyəti kəskin aşağı düşübdür. Doğrudanmı, hökumət düşünür ki, maaşlara edilən 10 faizlik artım insanların problemini həll edir?..

Bu gün bəlkə də heç vaxt olmadığı kimi ölkədə biznes mədəniyyəti deyilən anlayışa ehtiyac var. Qiymətlərin formalaşması həqiqətən böyük elmdir, çox faktorlu problemdir. Amma onun sirlərinə varan olan ölkələr də az deyil.

Qiymət məhsulun maya dəyərinin neçə faizini təşkil edə bilər? Dünyada bu sual heç də ritorik sorğu kimi səslənmir, onun çox ciddi əsasları var.

Hətta qonşu İranda qiymət siyasəti ciddi şəkildə tənzimlənir. Azərbaycanda isə deyirlər ki, onu bazar müəyyən edir. Fəqət, hansı bazar? İnhisarçıların tam nəzarətində olan bazarmı?..

# Rusiya Dövlət Duması niyə Xocalı soyqırımını tanımır?

**Bu ay bəşəriyyətin dəhşətli faciələrindən olan Xocalı soyqırımının törədilməsinin 24-cü ildönümü tamam olacaq. İnsanlığa qarşı cinayətin törədildiyi Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünyaya yayılması işi davam etsə də, hələlik nə cinayətin subyektləri cəzalarını alıb, nə də qətliama beynəlxalq səviyyədə hüquqi qiymət verilib.**

Doğrudur, dünyanın bir neçə ölkəsi Xocalı soyqırımını rəsmən tanıdığını bəyan edib. Azərbaycanla yanaşı, Meksika, Pakistan, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras, Islam Əməkdaşlıq Təşkilatı, o cümlədən ABŞ-ın 20-yədək ştatı erməni vandalizmini lənətləyən sənəd qəbul edib. Azərbaycanla Rusiya arasında normal münasibətlərin olduğu dəfələrlə vurğulansa da, hələlik Moskva Xocalı soyqırımını tanımayan dövlətlər sırasındadır. Düzdür, Rusiyanın Ermənistanla hərbi-strateji əməkdaşlığı fonunda bu, bir az da utopik görünür. Ancaq əgər Moskva Bakını özünün strateji müttəfiqlərindən hesab edirsə, deməli, ən azı faciəvi hadisələrə münasibəti baxımından Azərbaycana dəstəyini ifadə etməlidir. Bu da faktdır ki, Rusiya Dövlət Duması "erməni soyqırımı"nı inkar edənlərə məsuliyyəti nəzərdə tutan qanun layihəsini müzakirəyə çıxarmaq istəyir. Əslində bu, Türkiyəyə qarşı düşünülmüş bir cavab zərbəsi hesab oluna bilər. Ancaq hər halda, ermənilərin mövqelərinin daha da gücləndirilməsinə hesablanan bu kimi layihələr Azərbaycanın da əleyhinə işləyir. İndiki situasiyada isə Rusiya Dövlət Dumasının Xocalı soyqırımını tanıyacağına inanan yoxdur.

**Deputat Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, təkcə Rusiya deyil, dünyanın bir sıra ölkələrində Xocalı qətliamına laqeyd münasibət var:** "Xüsusilə Leyla xanımın (Əliyeva-red.) son illərdə başlatdığı kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində işlər getdi. Hətta Amerikada, Rusiyanın özündə və s. Amma parlamentlərdə soyqırımın tanınması artıq siyasi qərar olardı. Bu da faktdır ki, Ermənistan Rusiya ilə olduqca yaxındır və Rusiyanın himayəsində olan bir dövlətdir. Ona görə də Xocalı soyqırımının Rusiya Dövlət Dumasında tanınması o qədər də inandırıcı deyil. Yaddan çıxartmayaq ki, Xocalı soyqırımında bilavasitə iştirak edən 366-cı alay Rusiyaya məxsusdur və soyqırımın törədilməsində bu alayın xüsusi rolu və yeri var. Ona görə də biz nə qədər çalışsaq da Rusiya bu məsələdə aktiv görünməyəcək. Necə ki, ATƏT-in Minsk Qrupu çərçivəsində üç ölkədən biri də Rusiyadır, ancaq 20 ildən artıq müddətdə heç bir rolu yoxdur. Rusiyanın siyasi hakimiyyəti istəsə, bu addımlar atılacaq. Ancaq parlament və digər qurumlar səviyyəsində hər hansı rəsmi qərarın qəbulu mənimçün inandırıcı deyil".



**Çingiz Qənizadə:** "Yaddan çıxartmayaq ki, Xocalı soyqırımında bilavasitə iştirak edən 366-cı alay Rusiyaya məxsusdur"



**Fazil Mustafa:** "Dumada birini tapıb bu barədə məsələ qaldırmasına nail ola bilsək, böyük addım olar"

**Deputat Fazil Mustafa isə bildirdi ki, gec də olsa, bu barədə düşünmək, hərəkət etmək lazımdır:** "Hər halda, Rusiya parlamentində Azərbaycanın dostları çoxdur. Birini tapıb bu barədə məsələ qaldırmasına nail ola bilsək, böyük addım olar". Niyə indiyədək Azərbaycan Milli Məclisindəki Rusiyanın dostları Rusiya Dumasındakı Azərbaycanın dostları ilə bu istiqamətdə çalışmalara başlamağı düşünməyib? F.Mustafa deyir ki, hər şey əvvəldən düşünülsəydi, indi bizdə güllü-gülüstan olardı: "Biz işlər başa çatandan, addım atandan sonra düşünürük. Ona görə təbiidir. Hər halda, indi də bu barədə düşünmək olar".

❑ Cavìd TURAN

# "Ramil Səfərov işi"ndə ermənilərə uduzmamaq üçün nə etməli...

## Hüquqşünaslar ermənilərin yenə də məyus olacağı qənaətindədir

**Ermənistanın azərbaycanlı zabit Ramil Səfərovun erməni hərbçisi Gurgen Margaryanı qətlə yetirməsi ilə bağlı Azərbaycan və Macarıstanın cavabdeh ölkə kimi tanıması üçün Avropa İnsan Haqları Məhkəməsinə müraciət etməsi məsələsi getdikcə böyüyür. Margaryanın qohumlarının Səfərovun yenidən həbs edilməsi ilə bağlı tələbləri narahatlıq doğurur. Erməni hərbçisinin qohumları ölkəmizlə yanaşı, Macarıstanın da bu iş üzrə qanun pozuntusuna yol verdiyini iddia edirlər. Onlar Macarıstanı hökmdə göstərilən cəzanı tam çəkəcəyinə zəmanət almadan Ramil Səfərovun ekstradisiyasına icazə verməkdə günahlandırırlar.**



**Hüquq sahəsi üzrə professor İlham Rəhimov** "Yeni Müsavat"a müsahibəsində bu məsələ ilə bağlı maraqlı fikirlər bildirib. Ermənilərin belə bir müraciətinin olmasını KİV-lərdən oxuduğunu deyən İlham Rəhimov bildirib ki, burada təəccüblü bir şey yoxdur, çünki Ramil Səfərov azad olduğu gündən erməni tərəfi hay-küy qaldırmağa, müxtəlif beynəlxalq təşkilatlara müraciət etməyə başladı: "Bir qədər əvvəl mən Bolqarıstanda beynəlxalq tədbirdə iştirak etdim. Burada müxtəlif ölkələrdən gələn çoxlu hüquqşünaslar var idi. Tədbirdə iştirak edənlərdən biri Ramil Səfərovun azad edilməsinin hüquqi cəhətdən qanunauyğunluğuna dair məsələ qaldırmağa cəhd etdi. Mən təbii ki, ondan bu məsələni bağlamağı tələb etdim və bununla hər şey bitdi. Məsələ burasındadır ki, bu problem doğrudan da təkcə ermənilər tərəfindən deyil, başqaları tərəfindən və müxtəlif tədbirlərdə müntəzəm olaraq qaldırılır. Heç kəs ermənilərə Avropa Məhkəməsinə müraciət etməyi qadağan edə bilməz. Bu onların hüququdur. Ona görə də fikirləşirəm ki, məhkəmə baş tuta bilər, çünki bu səs-küylü məsələdir. Digər tərəfdən də, erməni diasporunun ölkəmizi dünya ictimaiyyəti qarşısında qaralamaq üçün bütün vasitələrdən istifadə etdiyini unutmaq olmaz. Bu fakt onlara bizə qarşı ideoloji və siyasi mübarizədə, o cümlədən Qarabağ məsələsində bir vasitə kimi çox vacibdir. Başqa cür desək, məsələnin hüquqi tərəfi onları heç maraqlandırmır. Əgər məhkəmə prosesi baş tutsa, beynəlxalq və milli hüquq əsasında öz mövqelərimizin hüquqi və siyasi müdafiəsi üçün hazırlaşmalıyıq".

Bir sıra ekspertlər bu fikirdədir ki, beynəlxalq hüququ dərindən bilən hüquq professoru İlham Rəhimovun "fikirləşirəm ki, məhkəmə baş tuta bilər" deməsi "Səfərovun işi" üzrə narahatçılığa əsasın olduğuna şübhə yeri qoymur.

**Tanınmış hüquqşünas Müzəffər Baxış da hesab edir ki, Azərbaycan tərəfi bu işin ölkəmizin zərərinə işləməməsi üçün addımlar atmalıdır:** "Azərbaycan Avropa Məhkəməsinə erməni tərəfin Səfərovla bağlı müraciətində heç bir əsasın olmadığını sübuta yetirən faktları təqdim edə bilər. Faktlardan biri Ramil Səfərovun Azərbaycanla Macarıstan arasında olan qarşılıqlı əlaqəyə əsasən ekstradisiya edilməsidir. Azərbaycan tərəfi Avropa Şurasının cəza çəkən məhbusların ekstradisiyası haqqında konvensiyasının tələblərini göstərə bilər. Həmin konvensiyasının müddəalarına uyğun olaraq, Azərbaycan və Macarıstan arasında əldə edilmiş razılıq əsasında Ramil Səfərov ekstradisiya edilib. Bu proses zamanı Azərbaycan dövləti üzərinə heç bir öhdəlik götürməyib. Sadəcə, ekstradisiya barəsində razılığa gəliblər. Bunu da Avropa Məhkəməsinin nəzərinə çatdırmaq mümkündür. Səfərov Azərbaycan tərəfə təhvil verildikdən sonra prezident öz səlahiyyətləri çərçivəsində onu əfv edib. Bununla o, ömürlük azadlıqdan məhrum edilmə cəzasından azad edilib. Beynəlxalq hüquq normalarına və konstitusiyamızın tələblərinə əməl olunmaqla, prosedur qaydaları həyata keçirilib. Bu məqamı da məhkəmənin nəzərinə çatdırmaqla erməni tərəfinin müraciətinin heç bir hüquqi əsasının olmadığını sübuta yetirmək çətin deyil".

Hüquqşünas onu da dedi ki, erməni tərəfi bu məsələni siyasi məqsədləri üçün gündəmdə saxlamaq istəyir. Hətta Avropa Məhkəməsinin bu barədə qərarı olsa belə, heç bir nəticəsi olmayacaq. Artıq Azərbaycan tərəfi Avropa Məhkəməsinin qərarları ilə bağlı Milli Məclisə qanun layihəsi hazırlayır. Həmin qanun layihəsinə əsasən, Avropa Məhkəməsinin Azərbaycanla bağlı qəbul etdiyi qərar tələblərə uyğun olmasa, Azərbaycan tərəfi bu qərarın icrasından imtina edə bilər. Bu baxımdan Azərbaycanla bağlı bundan sonra hansısa qərar qəbul edilsə, bunun icrasından imtina ediləcək.

❑ Etìbar SEYİDAĞA

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016

# Sabiq naziri qazanmaq uğrunda gizli savaş...

**Sabiq səhiyyə naziri Əli İnsanovun həbs edilməsindən 10 il 4 aya yaxın vaxt ötür. 11 il azadlıqdan məhrum edilən sabiq nazirin bu ilin oktyabrında cəza müddəti başa çatır. Görünən odur ki, o, cəza müddətini günə-gün çəkəcək. Çünki hakimiyyət məlum proseslərə görə hələ də qəzəbli olduğu üçün İnsanovu vaxtından əvvəl azad etmək fikrində deyil.**




# Əli İnsanov - müxalifətin vahid lideri - "Niyə də yox!"

## Məhbəsdəki nazirin azadlığa çıxmasına 8 ay qalır; onunla bağlı sensasion iddialar var; müxalif düşərgə gözünü 13 saylı "zon"a dikib; sabiq nazir "çıxan kimi bunlarla savaşa başlayacam", - ifadəsini hər yerdə təkrar edir...

Avropa İnsan Haqları Məhkəməsinin sabiq nazirin azadlığa buraxılması üçün qəbul etdiyi qərar da nəticəsiz qalıb. Lakin İnsanovun azadlığa çıxacağı müddət yaxınlaşdıqca, onunla bağlı cəmiyyət daxilində bəzi iddialar səslənməyə başlayıb. Müxalif düşərgə elektoratında isə ondan ciddi gözləntilər var. Bu düşərgə özünün ənənəvi liderləri ilə heç bir siyasi nəticə əldə etmədi. Son 23 il ölkənin demokratik düşərgəsi üçün bir kabus oldu: daimi məğlubiyyət bir lənət kimi düşərgəni izləməkdədir. Azərbaycanda iqtidarın ictimai dayaqlarının sarsıldığı dönəmlər də daxil, müxalifət təşkilat və rəhbərləri bu qədər böyük müddətdə tərəfdarlarını iqtidara daşıya bilmədilər. Hətta hakimiyyətin, parlamentdəki yerlərin qismən bölgüsü belə mümkün olmadı. Məhz bu səbəbdən Azərbaycanın milli-vətənpərvər kəsiminin bir qismini özündə birləşdirən müxalifət düşərgəsi hazırda böhran yaşayır. Siyasi müxalifətin elektoratı bütünlüklə virtual məkana transfer etmiş vəziyyətdədir. Burada onlar bir-birilərinə və bəzən də hakimiyyətə hücum edirlər. Bakının küçə və meydanlarında isə xalq və iqtidar üz-üzə qalıb. Bəzi fraqmentlərdə xalqın narazı hissəsinin bir qismi etirazlara qalxır, lakin onun önündə və yanında siyasi təşkilatçı yoxdur. Müxalifət hər dəfə kütləvi etirazlardan və onun məsuliyyətindən imtina edir. Bu da hakimiyyətə daha rahat işləmək və xalqın etirazların idarə etmək imkanları yaradır.

Məhz uğursuzluq səbəbindəndir ki, məyus müxalif elektorat özünə daha effektli, daha güclü, əlaqələri geniş olan, sirli qaynaqlardan güc götürdüyünü düşündüyü liderlər axtarır. Milli Şura avantürası ilə irəli çıxan dramaturq Rüstəm İbrahimbəyov müxalifət elektoratının əhval-ruhiyyəsinə bariz nümunədir. Bu düşərgə onu dərhal bağrına basdı, "pirim" deyə, qəbul etdi, başının üstünə qaldırdı, öz liderlərindən də çox sevdi, dəstəklədi... Səbəb sadə idi - insanlar məğlubiyyətdən, siyasətinküncündə qalmaqdan, bu vəziyyətin yaratdığı sıxıntılı həyatdan yorulmuşdular.

Lakin İbrahimbəyov hamını məyus etdi - yaşlı avantürist onminlərlə insanın inamı ilə oynayıb, bir kənara çəkildi...

Sonra kiçik bir zaman kəsimində sabiq nazir Fərhad Əliyevin adı önə çıxdı - lakin o da elektoratı məyus etdi və siyasi məkana daxil olmadan, ölkəni tərk etdi...

Daha sonra düşərgə "qiyamçı səfir" Arif Məmmədova ümidləndi. Nə baş vermişdi? Əslində heç nə! Səfir bir bəyanat vermişdi, onu işdən atdılar; o isə daha bir neçə dəfə kəskin bəyanat verdi... Düşərgə dərhal bir-birinə dəydi - onların qulaqlarına uzaqdan "ağ atlı oğlan"ın at kişnərtisinin səsi də gəlirdi. "Ağ atlı oğlan" - Arif Məmmədov üfüqdə bir parladı... AXCP elektoratı həyəcanlandı - Rüstəmə "pirim, mürşüdüm" deyənlər eyni münasibəti Arif Məmmədova sərgilədilər. Onun adına toz qonduranlara "xain, satqın, casus" ibarələri yağdırıldı...

Nəticə nə oldu? Heç nə... söndü. Məlum oldu ki, "kişnəyən at" Arif Məmmədovun deyilmiş. Arif müəllim indi də virtual məkanda açıqlamalar yayır - lakin indi onun açıqlamalarına gülənlərin, ya da laqeyd yanaşanların sayı onları "layk" edənlərin sayından dəfələrlə çoxdur.

***

Mərhum prezident Heydər Əliyevin əsas kadrlarından və alovlu tərəfdarlarından biri olan Əli İnsanov isə özünün müəyyən keyfiyyətləri ilə düşərgə fəallarının, eləcə də liderlərinin diqqətini çoxdan cəlb edib. Əvvəla, belə bir əfsanə dolaşır ki, sabiq nazir çox zəngindir. İkincisi, mənsub olduğu region camaatı arasında yüksək nüfuzunu hələ də qoruması barədə də xəbərlər dolaşmaqdadır. Həm də iddia olunur ki, artıq qərbi azərbaycanlılar hakimiyyətin dəstək elektoratı deyillər; onlar statuslarından və özlərinə verilən qiymətdən narazıdırlar.

Daha bir cəhət isə Əli İnsanovun 10 illik məhbəs həyatına, xəstəliklərinə və yaşlı halına rəğmən, sınmaması, onu həbs edənlərə direniş göstərməsi və Fərhad Əliyevdən fərqli olaraq, hakimiyyətə əfv üçün yalvarmamasıdır.

"Əsil siyasətçi" obrazını bağıra-bağıra, kəskin ifadələr və qətiyyətli jestlərlə danışan birilərində görməyə alışqan olan, başqa standartlar tanımayan elektorat üçün bu keyfiyyətlər olduqca cəlbedicidir. 23 yaşlı məğlubiyyət tarixi onları alternativlərə həssas edib: başlarındakı liderlər də buna xüsusi müqavimət göstərmirlər. Onlar hesab edirlər ki, elektoratlarına ilham vermək üçün kənardan "legioner" gətirmək heç də pis iş deyil; onsuz da enində-sonunda, həmin adamları və ümumilikdə prosesi özləri idarə edəcəklər. Çünki iddialarına görə, "çox ağıllı və təcrübəlidirlər..."

İndi düşərgənin tamamı gözünü 13 saylı cəzaçəkmə müəssisəsinə dikib. Bir neçə ay sonra Azərbaycan siyasətinin ən odioz fiqurlarından biri olan Əli İnsanov oradan çıxacaq. Bəs sual olunur, Əli İnsanov 13 saylı "zon"dan hara gedəcək? Fərhad Əliyev kimi xaricəmi, yoxsa birbaşa ölkənin siyasət məkanına daxil olub, hakimiyyətə qarşı savaşmı açacaq?

Müxalifətin bir-biri ilə rəqabət aparan əsas komponentləri Əli İnsanovu öz yanlarında görmək üçün hər şeyə hazırdırlar. AXCP və Müsavatın Əli İnsanov uğrunda mübarizəsi xeyli əvvəldən başlayıb. Kənardan görünən isə budur ki, bu mübarizədə Müsavat Partiyası daha avantajlıdır - Müsavatın bir neçə rəhbər şəxsi Əli İnsanovla eyni müəssisədə cəza çəkir və onların yaxın dostluq münasibətləri var. Bu aspektdən yanaşanda, Əli İnsanovun cəza evindən çıxandan sonra Müsavat Partiyasına qatılacağı ehtimalı daha yüksək görünür. Lakin məsələlər bəzən göründüyü kimi olmur...

Ümidləri çox şeydən üzülmüş, ənənəvi siyasət və manevrlərlə heç bir uğur qazanmayan müxalif elektorat bu dəfə də Əli İnsanov faktoruna ümidlənib. Düşərgənin bir sıra funksionerləri nə qədər desələr ki, onlarda lider problemi yoxdur, lakin görünən budur ki, belə bir problem var. Məhz bu səbəbdən də zaman-zaman kənar dalğalanmalar bütün düşərgəni həyəcanlandırır, ümidləndirir, yeni arzular yaradır.

Əli İnsanov möhkəm və köhnə kişidir. Lakin onun başında hansı planların olduğunu kimsə bilmir. Cənab İnsanovu tanıyanlar iddia edirlər ki, o, düşündüklərini, planlarını kənardan bəlli edən biri deyil və qəfil qərarlarla hər kəsi təəccübləndirə bilər.

**"Əli İnsanov bir zamanlar təmsil olunduğu hakimiyyətdən vurulan köhnə komanda yoldaşlarını bir araya gətirə və onları müxalif düşərgə ilə əlaqələndirə bilər. Onun hətta imkanları var ki, indi xaricdə olan və müxalifətlə gizli əlaqələri bərpa edən Fərhad Əliyevlə də təmasa keçsin və danışıqlar aparsın. Əli İnsanovun müxalifət düşərgəsinə açıq keçidi burada vəziyyəti kökündən dəyişərdi. O, bir-biri ilə müharibə vəziyyətində olan AXCP və Müsavatı bir araya gətirə biləcək yeganə simadır. Əli müəllim müxalifətin vahid lideri ola biləcək bir şəxsiyyətdir"**, deyə, onu yaxından tanıyan sabiqlərdən biri "Yeni Müsavat"a bildirib. O deyib ki, Əli İnsanov məhbus yoldaşlarına **"...çıxan kimi bunlarla (hakimiyyətlə) savaşa başlayacam"**, ifadəsini dəfələrlə, həm də yüksək səslə söyləyib...

***

**Müsavat başqanının müavini Elman Fəttahın məsələyə reaksiyası maraqlı oldu:** "...Əli İnsanov hazırda 13 saylı cəzaçəkmə müəssisəsində Müsavat başqanının müavini Tofiq Yaqublu ilə birlikdə qalır. Çox yaxşı münasibətləri var. Tofiq bəy onun prinsipiallığını çox yüksək qiymətləndirir. Biz də bu fikirlərlə razıyıq. Hər şey İnsanov azadlığa çıxdıqdan sonra məlum olacaq. Çünki azad olunduqdan sonra onun hansı işlə məşğul olacağı məlum deyil. Müxalifət lideri olub-olmamaq kimi keyfiyyətlər yalnız siyasi fəaliyyətlə ortaya çıxan məsələlərdir. Azərbaycan siyasəti lider problemi yaşamır. Hər bir Azərbaycan vətəndaşı siyasi partiya qura bilər, yaxud digər qurumlarda təmsil oluna bilər. Bu məsələləri indidən qiymətləndirmək doğru olmaz. Əli İnsanova azadlıq arzulayırıq. Biz onu siyasi məhbus sayırıq. Digərləri kimi onun da fotosu Müsavatın qərargahdan asılıb"...

**Politoloq Qabil Hüseynli ictimaiyyət arasında sabiq nazirin nüfuzunu duyduğunu söylədi:** "İnsanovun siyasi reytinqinin yüksək olduğunu söyləmək olar. Amma yaş o yaş deyil. Bu yaşda siyasətlə məşğul olmaq Heydər Əliyev kimi şəxslərin işi idi. İnsanovda da Heydər Əliyev əzmi, iradəsi, siyasəti olacaqsa, o da cəmiyyət arasında ciddi simaya çevrilə bilər. Onun siyasi perspektivinə ümid bəsləmək olar".

Xatırladaq ki, Əli İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində, dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunaraq, 2007-ci ilin aprel ayında əmlakı müsadirə və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunub.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016



## Neftin qiyməti hansı həddə qalxsa, manat dirçələr?

### Ekspertlərin fikirləri təzadlıdır, çünki...

**Neftin qiyməti son günlər cüzi də olsa, artmaqdadır. Artıq Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,11 dollar artaraq 31,00 dollar təşkil edib. ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,10 dollar artaraq 34,16 dollar olub.**

Bəs neftin qiymətinin hansı həddə qədər qalxması manata olan təzyiqləri dayandıra bilər? Həmçinin neft hansı həddə qədər bahalaşsa, manat dirçələ bilər? Rəyini öyrəndiyimiz ekspertlərin mövqeyi təzadlıdır.

**İqtisadi və Sosial Araşdırmalar Mərkəzinin rəhbəri Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, neftin qiyməti 40 dollara qədər artarsa belə, manata təzyiqlər olacaq: "İkinci devalvasiyadan əvvəl bizim mərkəz manatın məzənnəsi, neftin qiyməti ilə bağlı ssenarilər hazırlamışdı. Aprel ayının əvvəlində yayımlanan hesabatımızda üç ssenari üzrə neftin dünya bazarında qiymətinə baxılması və buna uyğun manatın məzənnəsini proqnozlaşdırmağı təklif edirdik. Onlardan pessimist ssenari neftin dünya bazarında qiymətinin 40 dollardan aşağı olduğu ssenari idi. Bu müddətdə manatın stabilliyi ilə bağlı problem olacağını bildirmişdik. Bu halda manatın stabilliyini qoruyub saxlamaq olduqca çətindir. Çünki Azərbaycan hətta güzəştli idxalı çıxsaq belə, qeyri-real idxalın cəmi təxminən 9 milyard dollardır. Yəni o deməkdir ki, hər il 9 milyard dollar vəsait lazımdır ki, Azərbaycana məhsullar idxal edilsin. Bizim 9 milyard dollar valyutamız ən azı idxal üçün olmalıdır. Əgər bu, olmasa, proses nəticə etibarı ilə manatın məzənnəsinin aşağı düşməsinə gətirib çıxaracaq. O baxımdan, neftin dünya bazarında qiymətinin 40 dollardan aşağı olması birmənalı şəkildə manata təzyiqi artırır. Azərbaycan üçün manatın məzənnəsi baxımından normal və ya orta ssenari neftin qiymətinin 40-60 dollar arasında olmasıdır. Bu, orta ssenaridir. Bu halda manata təzyiqlər kəskin azalır. Amma təbii ki, manat tam olaraq rahat nəfəs ala bilmir. Xarici iqtisadi təzyiqlər azalır. Bu halda manatın stabilləşməsi mümkündür. Söhbət manatın bazar tərəfindən möhkəmlənməsindən gedirsə, optimist, nikbin ssenari neftin qiymətinin 60 dollardan yüksək olmasıdır və uzun müddət bu intervalda qalmasıdır. Neft 60 dollardan yüksək olarsa, manata təzyiq praktik olaraq aradan qalxır. Çünki ölkəyə daxil olan valyutanın həcmi artır və manat rahat nəfəs ala bilir. Manatın möhkəmlənməsi o zaman mümkündür ki, neftin dünya bazarında qiyməti istehsalçı ölkələr üçün daha cəlbedici olan 80 dollardan yüksək olsun və artıq həmin intervalda bərqərar ola bilsin. Artıq manatın 80 dollardan yüksək olarsa və bir müddət belə qalarsa, manat dollara nisbətən məzənnəsinin möhkəmlənməsi mümkündür".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə musavat.com-a açıqlamasında qeyd edib ki, neftin hansısa həddə qalxmasının manatı dirçəldəcəyini ehtimal etmək artıq çətindir:** "Çünki bir qədər əvvəlki situasiya ilə sırf analogiya aparmaq artıq düzgün deyil. Yəni söhbət 2014-cü ildəki kimi və yaxud ondan əvvəlki kimi neftin qiymətinin yüksək olduğu zamanlardan gedir. O zaman neftin qiyməti yüz dollar idi, manat stabil idi. Neftin bareli yüz dollardan aşağı düşdü, manatın sabitliyinə təhlükə yarandı. Milyardlarla manat interverensiya gedirdi manatın kursunun sabit saxlanması üçün. İndi neftin qiyməti aşağı düşüb, yuxarı qalxdıqca manat yenidən ona müvafiq olaraq artacaq deyə bir fikir yoxdur. Yox. Çünki artıq situasiya başqadır. Çünki Azərbaycan iqtisadiyyatı əvvəlki iqtisadiyyat deyil. Söhbət odur ki, bu iqtisadiyyat əvvəlki deyil. Bu lokomotiv əvvəlki gücdə deyil ki, iqtisadiyyatı arxasınca çəkib apara bilsin və manat da yüksəlsin. Artıq neftin bahalaşması 50-60, hətta 70 dollara çatsa belə, bizim manatı möhkəmləndirəcək səviyyədə deyil. Çünki bizim iqtisadiyyatımız, ümumi daxili məhsulumuz artıq əvvəlki, 75 milyard dollar səviyyəsinə artım gücündə deyil".

❑ **Röya RƏFİYEVA**

# Antiböhran təkliflərinə laqeydlik müxalifəti qəzəbləndirib

**Manatın ikinci devalvasiyasından sonra müxalif partiyalar və təşkilatlar tərəfindən çoxsaylı təkliflər ictimaiyyətə açıqlanır. Bütün irəli sürülən sənədlərdə iqtisadi böhrandan çıxmaq istiqamətində müəyyən təkliflər irəli sürülür.**

YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə musavat.com-a açıqlamasında deyib ki, nə Prezident Administrasiyasına, nə Nazirlər Kabinetinə, nə hakim partiya olan Yeni Azərbaycan Partiyasına bu təkliflərdən biri də rəsmi şəkildə daxil olmayıb. Ona görə də müxalifət təşkilatlarının təkliflər məsələsində mövqeyini sadəcə populist mövqe adlandırmaq olar. Çünki onlar doğrudan da hansısa bir təklifin praktikliyində maraqlıdırlarsa, həmin təklifi yazılı rəsmi şəkildə müvafiq rəsmi orqanlara təqdim etməlidirlər, həmin təkliflərlə bağlı görüş istəyib bunları müzakirə etməkdə maraqlı olmalıdırlar.

Bəs müxalifət düşərgəsi antiböhran təkliflərini rəsmi şəkildə hakimiyyətə təqdim etməyi, görüş və müzakirələr üçün müraciət etməyi planlaşdırırmı?

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, irəli sürdükləri təkliflər müvafiq ünvana göndərilib və onlara yetişib. Amma sadəcə olaraq, bəlkə də baş nazirin hələ işlərdən başı ayazımır ki, təkliflərə baxılsın:** "Müxalifətin təkliflərinin siyasi populizm olduğu haqda deyilənlərə gəldikdə, ola bilər ki, göndərilən təkliflərin içində kiminsə təklifi populizmdir. Ancaq əslində populizmlə bu hökumətdəkilər məşğuldurlar ki, Azərbaycanı indiki duruma gətirib çıxardılar. Artıq bütün məsələlər bitib. Bir-birinə böhtan atmaq, şantaj eləmək, populizmdən filandan danışmaq lazım deyil. Müxalifətin irəli sürdüyü təkliflər populizmlə məşğul olmaqdırsa, onda nazirlərin həftənin beşinci günü rayonlara gedib əhali ilə görüşlər keçirməsi də populizmdir?!

Müxalifətdən verilən təkliflərə hakimiyyətin necə münasibət göstərdiyini bir faktla ifadə edim, vəziyyətin necə olduğunu görəcəksiniz. İlham Əliyev iki il öncə Məhəmməd Əmin Rəsulzadənin 130 illiyinin dövlət səviyyəsində keçirilməsi barədə fərman verəndə, Nazirlər Kabinetinə bunun üçün tapşırıq verəndə şəxsən partiyamızın Ali Məclisinin 16 bənddən ibarət təkliflərini hökumətə rəsmi şəkildə təqdim elədim. Nazirlər Kabineti təkliflərimizi Milli Elmlər Akademiyasına, Mədəniyyət və Turizm Nazirliyinə göndərdi. Mədəniyyət və Turizm Nazirliyi isə bizə cavab verdi ki... Bilirsiz nə cavab verdi? Daha ardını demirəm. Bax, indi də böhrandan çıxış yolları üçün irəli sürülən təkliflərə təxminən bu cür münasibət sərgilənir. Azərbaycan iqtidarının nümayəndələri Allahın onlara verdiyi ağıldan istifadə etmir, bizim təkliflərimizdən necə istifadə edəcəklər?! Mən çox istərdim ki, hər kəs öz ağlından istifadə eləsin.

Təkliflərin YAP-a göndərilmədiyi barədə deyilənlərə gəlincə, YAP ölkədə qeydiyyata alınan 55 partiyadan biridir. Heç bir partiya başqa bir partiyaya böhranla və digər bu kimi məsələ ilə bağlı təklif verməz. Ona görə də biz təkliflər təbii ki, YAP-a verilməyib".

**"2015-ci ilin əvvəlində Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyalar arasında keçirilən görüş tipli görüş və müzakirələrin yenidən bərpa olunması üçün müraciət etməniz gözlənilirmi" sualına M.Mirəlioğlu belə cavab verdi:** "Hakimiyyət ölkədə 2016-cı ili Multikulturalizm ili elan edib. Heç olmasa elan olunmuş ilə uyğun da hərəkət eləmirlər. Azərbaycandakı siyasi partiyaların dediklərinə hələlik bir dəqiqə belə vaxt ayırmır. Xatırlatdığınız görüşlərə biz bilə-bilə öz nüfuzumuzun əleyhinə gedərək qatılırdıq. Biz öncədən də bilirdik ki, heç nə olmayacaq. Sadəcə, xalqın, dövlətin maraqları naminə buna gedirdik. İndi də dövlətin, xalqın maraqları naminə müzakirələrə hazırıq. Məncə, hələ hakimiyyət bu görüşlərdə maraqlı deyil".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, Aydın Mirzəzadə YAP-ın şöbə müdiri və deputatı olsa da, hakimiyyətin siyasətinin müəyyən olunmasında həlledici rola malik deyil. Ona görə də onun fikirləri də xeyli dərəcədə subyektiv xarakter daşıyır. Müxalifət düşərgəsi indi yaranmış vəziyyətlə bağlı irəli sürdüyü təkliflərin əsas ünvanı kimi cəmiyyəti nəzərdə tutur:** "Cəmiyyətin bir hissəsi də iqtidardır. Prinsip etibarilə hansısa məqamda rəsmən Azərbaycan iqtidarına, hökumətə həmin təkliflərin göndərilməsi istisna deyil. İndiki məqamda isə təkliflər xeyli dərəcədə siyasi xarakterli və cəmiyyətə ünvanlanmış təkliflərdir. Partiyaların, partiyaların birliklərinin ölkədə yaranmış vəziyyətlə bağlı mövqelərini ifadə edir.

Təkliflərə hansı münasibətin göstərilməsi də iqtidar və onun siyasi təsisatlarından asılıdır. Görünən budur ki, hələlik iqtidar bu təklifləri ciddi bir şəkildə dəyərləndirib müzakirə etməyə hazır görünmür. Amma prosesin müəyyən bir məqamında əlbəttə ki, müxalifət düşərgəsindən irəli sürülən təkliflərin birbaşa iqtidara ünvanlanması istisna deyil".

Antiböhran təklifləri ilə bağlı müzakirələr aparmaq üçün hakimiyyətlə görüşmək təşəbbüsünün, bununla bağlı müraciətlərin olub-olmayacağına gəlincə, P.Hüseyn dedi ki, ola bilər hansısa məqamda bu addımlar atılsın. Lakin iqtidarın hazır görünməməsi səbəbindən bu məsələ hələ gündəmə gəlməyib.



**Mirmahmud Mirəlioğlu:** "Əslində populizmlə bu hökumətdəkilər məşğuldurlar ki, Azərbaycanı indiki duruma gətirib çıxardılar"



**Pənah Hüseyn:** "Əvvəl-axır dialoq istiqamətində addımlar atılacaq, artıq qüvvələr nisbəti də dəyişib və bu heç də iqtidarın xeyrinə deyil"

**2015-ci ilin əvvəlində Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyalar arasında keçirilən görüş tipli görüş və müzakirələrin yenidən bərpa olunması üçün təşəbbüslərin olub-olmayacağı haqda isə AXP sədri bunları dedi:** "Həmin prosesin nəticəsiz qalması, uğur qazanmaması əlbəttə ki, bu tipli proseslər üçün də ciddi problem yaratdı. Ona görə artıq bu cür məsələlərə ehtiyatlı yanaşma olacaq. Nəzərə alınmalıdır ki, indiki vəziyyət 2015-ci ilin əvvəlki dövründəkindən əhəmiyyətli dərəcədə fərqlidir. O baxımdan da mənə elə gəlir ki, əvvəl-axır dialoq istiqamətində müəyyən addımlar atılacaq. Artıq qüvvələr nisbəti də dəyişib və bu heç də iqtidarın xeyrinə dəyişməyib. İndi daha fərqli proseslər baş verir və ictimai şüur keyfiyyətcə daha fərqli problemlərlə məşğuldur".

❑ **Etibar SEYİDAĞA**



# Şimaldan Bakıya yeni təhdid - köhnə "erməni kartı" təzədən "dizayn" edilir

## Moskva Ankara ilə soyuq savaşa Azərbaycanı da qatmağa çalışır; 1921-ci il Rusiya-Türkiyə dostluq müqaviləsinin ləğvi təşəbbüsünün arxasında duran məkrli niyyət və hədəflər...

**Moskva-Ankara münasibətlərində "Su-24" insidentindən dolayı gərginlik davam edir. Son günlər tərəflər arasında söz savaşı, əsəb müharibəsi, "soyuq savaş" bir qədər də güclənmiş kimi görünür. Hər halda, Rusiya və Türkiyənin yüksək çinli rəsmilərinin səngiməyən qarşılıqlı sərt açıqlamaları belə qənaət yaradır.**

Görünür, şimal qonşumuz "soyuq savaş"da bəzi "Yaxın xaric" ölkələrini də öz yanında görmək istəyir. Söhbət öncəliklə həm qardaş ölkə, həm də Rusiya ilə normal münasibətlərdə olan və məlum konfliktdən optimal məsafə saxlamağa çalışan Azərbaycandan gedir.

Doğrudur, Kreml hələ heç kimə qarşı rəsmən belə bir tələb-xahişdə bulanmayıb. Lakin Moskva isteblişmentinə daxil olan şəxslərin axır vaxtlar sərgilədyi davranışlar bu istəyə eyhamlardan xali deyil. Ən azından, müşahidə olunan budur ki, Moskva konkret tələb irəli sürməsə də, Bakı-Ankara əlaqələrinin çox dərinə işləməsindən məmnun olmadığını da ara-sıra incə şəkildə büruzə verməkdədir.

***

Böyük ehtimalla, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 16 fevral Azərbaycan səfəri ərəfəsində Bakıya belə xəbərdarlıq mesajları artacaq. Diqqətçəkicidir ki, məhz bu ərəfədə Rusiya Dövlət Dumasının deputatları 1921-ci il martın 16-da Türkiyə ilə Rusiya arasında imzalanan dostluq və qardaşlıq haqqında razılaşmanın ləğvi təşəbbüsü ilə çıxış ediblər.

Rusiya Kommunist Partiyasının Mərkəzi Komitəsi sədrinin müavini Valeri Raşkinlə partiyanın katibi Serqey Obuxov bununla bağlı prezident Vladimir Putin və xarici işlər naziri Sergey Lavrova müraciət ünvanlayıb. "İzvestiya" qəzetində dərc olunan müraciətdə "Ankara tərəfindən Moskvaya qarşı aqressiv siyasi xəttin yürüdülməsi" əsas gətirilərək, müqavilənin ləğvinə çağırış yer alıb.

**Sitat:** "Hazırda Türkiyə tərəfindən aqressiyanın artdığı bir vaxtda hesab edirik ki, biz ölkəmiz və onun müttəfiqləri üçün məqbul olmayan bütün türk-rus razılaşmalarına yenidən baxmalıyıq. Ankara anlamalıdır ki, münaqişənin bu cür eskalasiyası nə ilə nəticələnə bilər. Yalnız bu, onu yeni təxribatlardan yayındıra bilər. Bununla bağlı Türkiyə hakimiyyətinə xatırlatmaq lazımdır ki, dostluq və qardaşlıq haqqında Moskva razılaşması əbədi deyil".

**Müraciətdə o da qeyd olunur ki, Güney Qafqaz respublikalarından ikisi - Gürcüstan və Ermənistan razılaşmanın tələblərini ədalətsiz hesab etdiyi üçün sənədi tanımır:** "Ermənistan Moskva razılaşmasının icrasını nəzərdə tutan Qars razılaşmasını tanımır, Gürcüstanın Ali Şurası ilə 2005-ci ildə onu ləğv edib".

Qeyd edək ki, Rusiya parlamentinə saxta erməni "soyqırımı"nı inkara görə cəza nəzərdə tutan sənəd layihəsi təqdim eləmiş "Ədalətli Rusiya naminə" partiyasından olan fraksiya Türkiyə əleyhinə olan bu təşəbbüsü də dəstəkləyib. Həmin fraksiyadan olan deputat Oleq Paxolkov iddia edib ki, Moskva müqaviləsi Rusiyanın maraqlarına ziddir.

Onun sözlərinə görə, müqavilədə Türkiyə "çox ağır şərtlər, o cümlədən Dağlıq Qarabağ muxtar vilayətinin yaradılması haqda şərt" irəli sürüb. "Ancaq türkləri tərbiyələndirmək lazımdır ki, bu dünyada heç nə əbədi deyil. Əgər bu gün siz Rusiyaya qarşı düşmənçilik edirsinizsə, müqavilənin denonsasiyası normal tədbirdir. Və bu məsələdə Ermənistan da bizə dəstək verəcək" -deputat deyib. Onun fikrincə, müqavilənin ləğvinin böyük hüquqi qüvvəsi olmasa da, Rusiya bununla öz ərazi iddialarını müəyyən edəcək.

***

Xatırladaq ki, Ankara-Moskva münasibətləri korlanandan sonra işğalçı Ermənistan dərhal situasiyadan yararlanıb dəridən-qabıqdan çıxmağa çalışır ki, Rusiya həmin müqaviləni birtərəfli qaydada aradan qaldırsın. Çünki bu, təcavüzkar ölkəyə Azərbaycan ərazilərinin indiki işğalına dolayısıyla haqq qazandırmaqla yanaşı, Naxçıvana olan iştahasına da əlavə stimul verə bilər.

Məlumat üçün bildirək ki, 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsi Azərbaycan üçün kifayət qədər mühüm əhəmiyyət daşıyır. Müqavilənin şərtlərinə əsasən, Naxçıvan Azərbaycanın himayəsi altında muxtar ərazi statusuna malikdir və Türkiyə onun qarantıdır. 16 maddə və 3 əlavədən ibarət sənəddə Azərbaycanın Naxçıvanın himayəsini üçüncü dövlətə güzəştə getməməsi barədə maddə də əksini tapıb. Müqavilənin müddəaları əsasında və onun icrası üçün 1921-ci il oktyabrın 13-də Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqaviləsi (müddətsiz) imzalanıb.

***

Əlavə edək ki, səs çoxluğuna malik hakim "Vahid Rusiya" partiyası və konkret olaraq, onun rəhbəri prezident Putinin iki məsələyə münasibəti hələlik bəlli deyil. İstisna deyil ki, bir müddət bu qeyri-müəyyənlik davam edəcək - Ankara və Bakıya qarşı təhdid atmosferinin saxlanması üçün.

Ayrı sözlə, siyasi analitiklərin də vurğuladığı kimi, bunlar elə təşəbbüs olaraq qala da bilər. Nədən ki, Türkiyə ilə, demək, həm də Azərbaycanla münasibətlərin geridönməz şəkildə korlanması və bölgədə yeni müharibə riskinin güclənməsi ağır sanksiyalar altında olan Kremlin cari və perspektiv maraqlarına uyğun deyil.

Köhnə "erməni kartına" təzə biçim, qiyafə vermək isə yalnız erməni iddialarına fayda gətirə bilər. O üzdən hazırda bu kimi təşəbbüslər mahiyyət etibarilə Ankara-Moskva münasibətlərinin normallaşması üçün münbit zəmin yetişənədək daha çox təbliğati antitürk gedişi kimi düşünülən, təzyiq xarakterli addım təəssüratı bağışlayır və reallaşacağı inandırıcı deyil.

❑ **Siyasət şöbəsi**



# Roqozin Cənubi Koreya kəşfiyyatını lağa qoydu

## "Erməni radiosu"na oxşayır..."

**Rusiyanın vitse-premyeri Dmitri Roqozin Cənubi Koreya kəşfiyyatının Pxenyanın keçirdiyi ballistik raket sınağına dair şərhini lağa qoyub. Virtualaz.org xəbər verir ki, Roqozin Seulun Şimali Koreya ballistik raketinin hissələrinin Rusiyadan alındığına dair bəyanatını özünün twitter bloqunda şərh edərək bunu tamamilə qeyri-ciddi, lətifəyə oxşayan və "Erməni radiosu"nu xatırladan bəyanat adlandırıb.**

"Biz raket texnologiyalarının yayılmaması rejiminə dəqiq əməl edirik, mənim rəhbərlik etdiyim ekspert komissiyası heç vaxt Şimali Koreyaya bu cür texnologiyaların verilməsini müzakirə etməyib. Bu informasiya tamamilə mənasız və axineyadır, heç yarım faiz də doğru deyil"-Roqozin yazıb.

Fevralın 7-də Şimali Koreya uğurlu raket sınağı haqda elan edib. Şimali Koreya raketi kəşfiyyat peykini orbitə çıxarıb. BMT Təhlükəsizlik Şurası təcili toplanaraq Pxenyanın raket sınağını pisləyib.

# Hinduların Bakıdakı hüquqları



**Zamin HACI**
zaminhaci@gmail.com

**Uca millətimizin demaqoqiya damarı tərpənəndə öz problemlərini görməyib başqa dövlətlərdə tük axtarır. Özəlliklə, Avropanı, Qərbi "biz müsəlmanıq, onlar xristian" kontekstində söymək bizdə dəbdir. Bu mənasız söhbətlərdə daim səslənən arqumentlərdən biri Amerikanın yerli əhalisi - hindular haqda olur. Əziz müsəlmanlarımız deyirlər ki, əgər Amerika yaxşı dövlət olsaydı hinduları qırıb onların torpaqlarını tutmazdılar. Ta indiki Amerika sakinlərinin 300-400 il qabaqkı davalara görə suçu nə qədərdir, indiki dövlətdə hinduların hüquqları nə qədər qorunur - bunlar heç kimi düşündürmür.**

Ancaq təzəlikcə Bakıda elə bir hadisə cərəyan etməkdədir ki, azərbaycanlılar hindu arqumentini gərək birdəfəlik qatlayıb bir yerə soxsunlar, çünki həmin hadisə baş verib qurtarandan sonra Azərbaycanda hinduların hüquqları azərbaycanlıların hüquqlarından artıq olacaqdır. Sözün əsl mənasında. Məcazi söhbət-zad deyil. İzah edim, sən də gör.

Bakının lap mərkəzində "Azərbaycan" kinoteatrı vardı. Qarşısında Natəvanın heykəli olan bu yeri paytaxtın bəlkə ürəyi saya bilərik. İndi yapistlər kinoteatrı tamam söküblər, yalnız fasadı qalıb. İçində isə "Hard Rok Kafe" adlı restoran açılacaq. Bu, dünyada yayılmış restoranlar şəbəkəsi imiş, françayzinq (qısa yazsam, markanın satışı) üsulu ilə yapistlərdən kimsə burda da açacaq. *(Hərçənd "HRK" son illər tənəzzül yaşayır və xeyli restoranı bağlanıb - yapistlərin perspektivli sahəyə yatırım qoymasını görmüsünüzmü? Bunlarda ağıl olsaydı korrupsioner olmazdılar, halal yolla qazanılan pulun haramdan min dəfə üstünlüyünü, yeməliliyini başa düşərdilər).*

Natəvan 19-cu əsrdə Şuşada yaşamış şairdir, onun heykəlinin arxasında rok-kafe açmaq paytaxt konsepsiyasına nə qədər uyğundur, bunun müzakirəsini peşəkarlara buraxaq. Hərçənd buna da şükür, ona qalsa Bakının bir çox tarixi binalarında əcaib restoranlar açıblar, misal üçün, Cabbarlının heykəlinin yanında "KFC" restoranı tarixi binada yamaqdır. Qız qalasını "evroremont" villaya döndəriblər. Səlahiyyət əllərindədir, istəsələr Natəvanın heykəlinin başına pinqvin də qoyarlar - kim etiraz edəcək? "Xalq ziyalıları" - yazıçı-pozucular, manıslar, kinoqayıranlar, boyakarlar və sairə riyakarlar prezident təqaüdü alıb dillərini çoxdan bir yerə qoyublar, yazılası yer deyil.

Rok azad, etiraz musiqisidir, o baxımdan yapistlər bizdə rokun cücərməsinə belə imkan verməyiblər və hazırda Azərbaycan roku demək olar yoxdur. Bir atımlıq barıtı olan iki-üç yorğun qrup qırıntısından başqa heç nə saya bilmərik. Təsəvvür edin, adamlar hələ də 25 il qabağın qrupu "Yuxu"nun səs yazılarını dinləyib qulaqlarının qurdunu öldürür! Roku olmayan şəhərdə rok kafe açırlar, afərin. Prinsipcə, bizdə siyasət də məhv edilib, ancaq "seçki" keçirilir.

Nəhayət, oxucu deyə bilər bunun hindulara nə dəxli, lap bezdirdin bizi. Haqlısınız, qısa yazıram: bu "Hard Rok Kafe" şəbəkəsini 2006-cı ildə ABŞ-ın əsasən Florida və Oklahoma ştatlarında yaşayan seminollar adlı hindu tayfası 965 milyon dollara alıb! Yəni Bakıda açılacaq restoran hindularındır. Yeri gəlmişkən, seminollar Amerikada yeganə hindu tayfasıdır ki, hələ indiyə qədər ABŞ hökuməti ilə rəsmi barışıq imzalamayıblar və özlərinə "yenilməz qəbilə" deyirlər. Bu tayfanın mübariz başçılarından biri haqda məşhur yazıçı Mayn Ridin "Otseola - seminolların başçısı" adlı romanı da var.

Hüseyn Məhəmməd adlı sosial şəbəkədən tanıdığım virtual dostumuz səyahət həvəskarıdır, bu yaxında Himalaya da getmişdi, həmin səyahətindən "Yeni Müsavat"da müsahibə olub, yəqin diqqətli oxucular xatırlayar. Hüseyn bəy vətənə dönəndən sonra dağ turizmi ilə bağlı bir şirkət qurmaq fikrinə düşüb, ancaq bizim bürokratik orqanlar onun qarşısına saysız əngəl çıxardılar. Deyir Himalaya qalxmaq üçün Nepal turizm idarəsindən icazəni 10 dəqiqəyə almışdım, burda Bazardüzünə çıxmaq icazəsini Ekologiya və Təbii Sərvətlər Nazirliyi 1 aya verir. Bu vəziyyətdə hansı turizmdən, hansı biznesdən danışmaq olar?

Halbuki Hüseyn bəyin dərisi qırmızı olsaydı Bakının mərkəzində kafe aça bilərdi.

# "Ola bilsin ki, Aristotel haqlıdır..." - professor İlham Rəhimovdan hadisə kimi müsahibə

## Hüquqşünas-alim: "Rusiya-Türkiyə münasibətlərinin hazırkı durumu Qarabağ məsələsini dalana saldı"



**Fevralın 5-də hüquq professoru, tanınmış iş adamı, xeyriyyəçi İlham Rəhimov "Yeni Müsavat" qəzetinin dəvəti ilə redaksiyada olub və jurnalistlərin suallarını cavablandırıb. Həmin cavablar əsasında hazırlanan müsahibənin ikinci, sonuncu hissəsini təqdim edirik.**

*(Əvvəli ötən sayımızda)*

***- Böhran Sizə necə təsir edib? Bir iş adamı kimi böhranın zərbəsini hiss edirsizmi? Sizin işiniz, biznesiniz Rusiyadadır və Rusiya iqtisadi baxımdan Azərbaycandan da pis durumdadır.***

- Təbii ki, bizə də təsir edir. Ona görə ki, neft dəyərdən düşdükcə rus pulunun dəyəri də aşağı düşür. 2 mindən çox işçimiz var, onların maaşını rublla veririk...

***- Bu vəziyyətdən sonra maaşları qaldırmısızmı? Rus iş adamları, Rusiyada işi olan azərbaycanlı iş adamları, sıravi rus insanı bu krizisi necə yaşayır?***

- Biri var dövlətin özündə bu problem yarana; hansı dövlət ki, daxilində bu problemi hansısa yolla, məsələn, daxili istehsalın köməyi ilə həll edir, orda problem azdır. Amma hətta iynəni də xarici ölkədən alan ölkə üçün vəziyyət çətindir. O baxımdan, məsələn, Rusiya və Türkiyədə daxili istehsal var. Elə ölkə var ki, neftə oturub, ondan başqa istehsalı yoxdur. Amma Rusiya silah satışına görə dünyada ikinci yerdədir. Onlar təkcə keçən il 10 milyard dollarlıq silah satıblar. Azərbaycanda da, Rusiyada da təbii sərvətlər var, amma Qərbdə yoxdur. Əvəzində isə Qərbdə texnologiya var, bizdə isə o yoxdur.

***- Burda necə bir tərs mütənasiblik var? Bunun açmasını verə bilərik?***

- Qərbin ehtiyacı təbii sərvətlərədir. Azərbaycanın da, Rusiyanın da ehtiyacı texnologiyayadır. Texnologiya deyəndə istənilən növ texnologiya nəzərdə tutulur. Telefondan tutmuş, neft avadanlığına qədər. Əgər Rusiya o texnologiyanı özü istehsal etsə, asılılıq azalır. Amma Qərb gedib özünə təbii sərvət tapa bilməyəcək axı. Bunları perspektiv üçün deyirəm... Hansı ölkənin təbii sərvəti varsa, o, texnologiyasını inkişaf etdirsə, daha qabağa gedəcək.

***- Dağlıq Qarabağda dövri döyüşlər gedir. Bu məsələnin fonunda bizim ermənilərin əsirliyində olan iki girovumuz yada düşür. Biz bilirik ki, əlaqələri geniş olan bir azərbaycanlı kimi siz bu cür məsələlərlə maraqlanır, narahat olursuz. Bu iki girovun qaytarılması istiqamətində hər hansı fikirləriniz var?***

- Bu məsələ ilə bağlı olaraq əvvəlcə Rusiya siyasətçiləri və hökumət nümayəndələri ilə məsləhətləşdim. Məsələ burasındadır ki, bu qeyri-adi hadisədir, yəni onu hüquqi cəhətdən tənzimləmək mümkün deyil. Biz onların hüquqi statusunu müəyyənləşdirə bilmirik. Yəni onlar nə əsirdirlər, nə cinayətkardırlar, nə də casusdurlar. Onlar Qarabağ ərazisində öz evlərində, Azərbaycanda bandit qruplaşmaları tərəfindən tutulublar. Ona görə də onlar terroristlərin əlində girov sayılırlar. Hansıları ki, ya gərək hərbi yolla azad edəsən, ya da ki danışıqlar yolu ilə. Ona görə də ermənilər nə deyirlərsə: istintaq, məhkəmə prosesi və s.-in heç bir hüquqi gücü yoxdur. Əgər Avropa Məhkəməsinə müraciət edilsə, onlar banditlərin bu hərəkətini cinayət əməli hesab edəcəklər.

***- Bəs Rusiya Ermənistan və ya Qarabağ rəhbərliyinə müraciət edə bilərmi?***

- Bu həm siyasi, həm də hüquqi cəhətdən qeyri-mümkündür.



### "23 ildir ki, gəlib-gedirlər və heç bir xeyri yoxdur, ATƏT-in Minsk Qrupu faydasız qurumdur"

Əgər Rusiya Ermənistana müraciət etsə, bu o deməkdir ki, Qarabağ Ermənistan ərazisidir. Əgər Qarabağ separatçılarına müraciət edilsə, bu, Qarabağın müstəqil, hüquqi subyekt kimi tanınmasının təsdiqidir. Məlumdur ki, girovlardan biri Rusiya vətəndaşıdır. Hətta belə olan halda da onlar bilmirlər ki, kimə müraciət etsinlər. Hərçənd ki, hüquqi nöqteyi-nəzərdən onlar Azərbaycana müraciət etməlidirlər. Çünki onların tutulduqları və indi olduqları yer Azərbaycan ərazisidir. Ona görə ən doğru yol beynəlxalq təşkilatlara müraciət etməkdən ibarətdir. Gəlin hələlik müəyyən edək: onlar əsirdilər, ya girov?

***- Rəsmi qaynaqlarda girov olaraq təqdim edilir.***

- Təbii ki. Əsir o vaxt ola bilərdi ki, müharibə gedib və bunlar da əsir düşüblər. Onlar bizim öz vətəndaşımızdır, bizim öz torpağımızdadırlar.

***- Bu status onların geri qaytarılması baxımdan vəziyyəti ağırlaşdırır, ya yüngülləşdirir?***

- Əsir düşənlərdə durum bir az yüngüldür. Çünki onların beynəlxalq statusu var və geri qaytarılmaları ilə məşğul olan beynəlxalq təşkilatların sayı çoxdur. Amma girov düşəndə belədir ki, bu halda məsələ ya danışıqlar yolu ilə getməlidir, ya da gedib girovları azad etmək lazımdır.

### "Mənə çox xoşdur ki, məndən soruşurlar: "Niyə sizi təltif etmədilər"? Ən pisi və xoşagəlməyəni odur ki, haçansa deyirlər: "Onu nəyə görə təltif ediblər"?

***- Məhz bu məqamda bir sualı biz sizə verməyə bilməzdik. Söhbət Ermənistan tərəfinin Ramil Səfərovun işi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə təkrar müraciətindən gedir. Hamıya məlumdur ki, Siz bu problemi yaxşı bilirsiniz. Buna görə də fikrinizi bilmək istərdik...***

- Bəli, mən ermənilərin belə bir müraciətinin olmasını KİV-lərdən oxumuşam. Düşünürəm ki, burada təəccüblü bir şey yoxdur, çünki Ramil Səfərov azad olduğu gündən erməni tərəfi hay-küy qaldırmağa, müxtəlif beynəlxalq təşkilatlara müraciət etməyə başladı. Bir qədər əvvəl mən Bolqarıstanda beynəlxalq tədbirdə iştirak etdim. Burada müxtəlif ölkələrdən gələn çoxlu hüquqşünaslar var idi. Tədbirdə iştirak edənlərdən biri Ramil Səfərovun azad edilməsinin hüquqi cəhətdən qanunauyğunluğuna dair məsələ qaldırmağa cəhd etdi. Mən təbii ki, ondan bu məsələni bağlamağı tələb etdim və bununla hər şey bitdi. Məsələ burasındadır ki, bu problem doğrudan da, təkcə ermənilər tərəfindən deyil, başqaları tərəfindən və müxtəlif tədbirlərdə müntəzəm olaraq qaldırılır. Heç kəs ermənilərə Avropa Məhkəməsinə müraciət etməyi qadağan edə bilməz. Bu onların hüququdur. Ona görə də fikirləşirəm ki, məhkəmə baş tuta bilər, çünki bu səs-küylü məsələdir. Digər tərəfdən də, erməni diasporunun ölkəmizi dünya ictimaiyyəti qarşısında qaralamaq üçün bütün vasitələrdən istifadə etdiyini unutmaq olmaz. Bu fakt onlara bizə qarşı ideoloji və siyasi mübarizədə, o cümlədən Qarabağ məsələsində bir vasitə kimi çox vacibdir. Başqa cür desək, məsələnin hüquqi tərəfi onları heç maraqlandırmır. Əgər məhkəmə prosesi baş tutsa, beynəlxalq və milli hüquq əsasında öz mövqelərimizin hüquqi və siyasi müdafiəsi üçün hazırlaşmalıyıq.

***- Yeri gəlmişkən, Azərbaycanın müharibə yolu ilə, öz hərbi potensialı hesabına torpaqlarını azad etmək imkanını yaxın perspektivdə necə görürsünüz? Sülh danışıqlarının fayda vermədiyi görünür. O baxımdan Rusiya-Türkiyə münasibətləri fonunda bu perspektivi məhz Sizin necə qiymətləndirməniz də maraq doğurur?***

- Rusiya-Türkiyə münasibətlərinin hazırkı durumu hesab edirəm ki, Qarabağ məsələsini dalana saldı. Bu baxımdan, münasibətin korlanmasının əslində bizə də böyük zərbəsi dəyib. Çünki Rusiya ilə Türkiyənin yaxın münasibəti imkan verirdi ki, Türkiyə Qarabağ probleminin həlli prosesinə daha çox cəlb olunsun. Bir neçə il bundan əvvəl Ermənistanla Türkiyə arasında sərhəd məsələsi, blokadanın götürülməsi gündəmə gəldi. O zaman bunu Qarabağ məsələsi ilə bağlayırdılar. Siz necə düşünürsüz, yaxın müddətdə o sərhəd açıla bilər, ya yox? ... Yox. Deməli, hər dəfə bu məsələ gündəmə gəlsə, ermənilər də sərhəd və blokada ilə bağlı yarımçıq qalan həmin mövzunu müzakirəyə qoyacaqlar. Yadınızdadırsa, o zaman işə Amerika qarışmışdı. İndi deyəcəklər ki, bu məsələni gündəmə gətirirsizsə, gəlin onda sərhədlərin açılmasını da həll edək. Ona görə demək istəyirəm ki, münasibətlərin bu həddə çatmasının Qarabağ məsələsinin həlli baxımından mənfi təsiri var.

### "Mənim Rusiyaya münasibətim qətiyyən siyasətlə əlaqəli deyil. İstəyirəm ki, ölkələrimiz arasında qarşılıqlı hörmət, isti münasibətlər olsun. Bunu bizim indiki real vəziyyətimiz tələb edir"

***- Bəs ATƏT-in Minsk Qrupu həmsədrlərinin danışıqları? Sizcə, bunun faydası olacaqmı, bu format davam etdirilməlidir?***

- Bu, mənasızdır. Bir təşkilatın və bu formatın konfliktin həlli ilə bağlı heç bir faydası yoxdur. Bu təşkilatın zamana görə dəyişən həmsədrləri 23 ildir ki, ancaq turist kimi gəlib-gedirlər. Ortada isə heç bir nəticə yoxdur. Bunu niyə əminliklə deyirəm? O qurumla müəyyən qədər aktiv işləyən Rusiya siyasətçiləri ilə çox söhbətim olub. Onların danışıq və fikirlərindən əmin oldum ki, o qurum əhəmiyyətsiz bir şeydir.

***- Professor, Azərbaycanın cəlb edildiyi vətən müharibəsi nəticəsində bizim 1 milyona yaxın qaçqınımız oldu. Hazırda məhz müharibə qaçqınları dünyanın xəbər məkanında mövzu olaraq, birinci sıradadır. Ona görə də bir hüquq alimi kimi bu mövzuda açıqlamalarınız maraqlı olardı. Avropaya axışan müharibə qaçqınlarının statusu nədir? Onlar dünya üçün kimlərdir?***

- Beynəlxalq normativlərə görə, kimin qaçqın, kimin miqrant, kimin immiqrant sayılması müəyyən edilib. Bu dəqiqə onlar da, Avropa da çətinlik içindədir. Onların hüquqi statusunu müəyyənləşdirə bilmirlər. Bəziləri qaçqın deyir, bəziləri köçkün. Qaçqın o adamlar sayılır ki, öz vətənlərindən hansısa səbəblərə görə, əsasən də vətənində müharibə gedirsə, ya da vətəndaş müharibəsi alovlanıbsa, başını götürüb ölkəsini tərk edir. Bu halda sabitlik olan heç bir dövlətin onları qəbul etməmək ixtiyarı yoxdur.

***- Amma Avropa belə etmir axı. Bəzi ölkələrdə - Yunanıstanda, Macarıstanda, Serbiyada sərhədlər bağlanıb və faktiki qaçqınların girişinə icazə verilmir. Hər gün beynəlxalq media vasitəsilə nə qədər belə faciəvi hekayələrin şahidi oluruq...***

- Heç fikirləşmisiz ki, o qaçqınların heç biri niyə müsəlman ölkələrinə getmirlər? Çevrədəki ölkələrin hamısı müsəlman olsalar da, onların üzərindən Avropaya yürüş edirlər. Siz bunu düşünmüsünüz?

***- Maraqlıdır. Amma əksəriyyəti Türkiyəyə sığınıb, indi də oradadırlar...***

- Türkiyəyə ona görə gedirlər ki, Türkiyənin ərazisindən keçirlər. Onlar suriyalılardır və Türkiyə-Suriya sərhədindən toplu halda Türkiyəyə girirlər. Hazırda 2 milyon qaçqın Türkiyə ərazisində qalıb. Onlar kimlərdir? Nisbətən imkanlı suriyalılar. Hansıların ki, imkanı var, ev alır, iş tapırlar. Kimin ki, heç bir imkanı yoxdur, Türkiyədə qalmır. Onlar bilirlər ki, Almaniyaya gedən kimi ev verirlər, pulsuz tibbi xidmət göstərirlər, uşağını məktəbə düzəldirlər, aylıq müavinət verirlər.

***- Çevrədəki zəngin ərəb ölkələri bunu edə bilməzdimi?***

- Mən də onu soruşuram ki, niyə ora getmirlər? Ona görə ki, qaçan ərəblər çox yaxşı başa düşürlər ki, insan özünü ən yaxşı Avropada hiss edir. Onlar gözəl başa düşürlər ki, yaşayış necədir, harada insana necə azadlıq verilir...

***- Avropanı tərifləsaid, ona görə bu sualı verməmək mümkün deyil. Nə əcəb, siz də bir çox imkanlı, tanınmış simalar kimi, Avropaya yerləşmirsiz? Özü də elm adamısız, yaradıcılıqla məşğul olursunuz, kitablar yazırsız. Kənar müşahidələr də onu göstərir ki, Siz biznesdən daha çox elmlə məşğul olmaqdan zövq alırsınız. Gedib, Avropaya yerləşib, rahat elmlə məşğul olmaq niyə istəmirsiz?***

- Məndən bir dəfə soruşdular ki, əgər Bakıda yaşamaq mümkün olmasa, harada yaşamaq istəyərsiz? Dedim ki, iki yer var. Birinci İstanbul, ikinci Moskva.

***- Yəni Sizinçün Avropaya köç istisna olunur?***

- Mən Avropada heç bir vaxt bir həftədən çox qala bilmirəm. Düzdür, adam özünü orada çox rahat hiss edir. Adamdan orda soruşan olmur ki, sən burda nə edirsən...

***- Kitab yazmaq, yaradıcılıq çox maraqlı bir prosesdir. Hər kəs özünü bir köşədə, bir yerdə rahat hiss edir. Sizin kitablar harda yazılır?***

- Bakıda, Novxanıdakı bağımda, bəzi hallarda təyyarədə.

***- Bir dəfə demişdiz ki, təyyarədə, yerlə göy arasında özümü çox rahat hiss edirəm.***

- Bəli, bəzən 5-6 saat uçursan, təyyarədə rahatçılıqdır, heç kim mane olmur. Orda kitab oxuyub, qeydlər edirəm. Kitabın özünü yazmaq isə ev şəraitində, sakit məkanda olur. Əsasən də dediyim kimi, Novxanıda.

***- Nəvələr mane olmur?***

- Yox, onlar şənbə-bazar günü gəlirlər. Onlar da öyrəşiblər. Gələn kimi mənimlə görüşüb gedirlər. Bilirlər ki, mən işləyirəm, mane olmaq olmaz.

***- İş prosesi dediniz. Onun nə qədər hissəsi biznesə, nə qədəri yaradıcılığa həsr olunur?***

- Fikir verirsizsə, kitablarımın çıxması son 5 ildə daha intensiv oldu. Çünki onlardan əvvəl o biznesi qurmaq, relsə qoymaq lazım idi. Artıq onun hamısını eləmişəm. Moskvada biznes özü nizamda, qaydasındadır. Bu işlərə baxan cavanlar var. Əgər təcili bir problemi həll etmək, müzakirə etmək lazım olarsa ortaqlarla görüşürük, bir qərar qəbul edirik.

***- Yubiley ərəfəsində daha bir kitabınız çıxdı, tərcümə olundu bir neçə dilə. Sanki bir dövrə yekun vurdunuz. Yaradıcılıq prosesi davam edirmi? Planınız nədir?***

- Mən plan qurmağı sevmirəm. Hər şey ekspromt olur. Bundan qabaq mənim çox kitablarım çıxıb. 5 il bundan qabaq "Cinayət və cəza"nı yazan zaman düşünürdüm ki, bununla öz sahəmdə sözümü dedim, daha kitabla məşğul olmayacam. Yazdım, qurtardım, kitab çap olundu, oxudum. Gördüm ki, bu kitabda nəsə çatışmır, sözümü tam deməmişəm, bir boşluq var...

***- Bu düşüncələr nəyi ortaya çıxardı?***

- "Cinayət və cəzanın fəlsəfəsi"ni - bu adda yeni kitabı. Sonra yenə eyni proses oldu. Düşündüm ki, bununla proses yekunlaşdı. Amma kitab ərsəyə gələndə yenə gördüm ki, sözümü tam deməmişəm. Bu dəfə də "Cəzanın əxlaqı" barədə yazdım.

***- Sizin kitabları kim oxuyur? Oxucu kontingentiniz kimdir?***

- Hüquqşünaslar, hüquq fakültəsinin tələbələri, müəllimlər. "Cinayət və cəzanın fəlsəfəsi"ni isə hüquqşünaslarla yanaşı, filosoflar da oxuyur.

***- Kitablarınızdan neçəsi dərslik kimi istifadə olunur?***

- Moskvada, Türkiyədə və Azərbaycanda dərslik kimi istifadə olunur. "Cinayət və cəzanın fəlsəfəsi" Azərbaycan, rus, türk, italyan, ingilis, yəhudi, bolqar dillərinə tərcümə olunub.

***- Bu kitablara görə patent alırsızmı? Kitab yazmaqdan gəlir əldə etmək olurmu?***

- Bəli. Kitabların satışından əldə etdiyim gəliri "Alimlər Fondu"na keçirirəm. İtaliyadadır o fond.

***- Kitablarınızın satış qiymətləri neçəyədir?***

- Hər ölkədə fərqlidir. Məsələn, İngiltərədə 25 funt sterlinqdir bir kitabın qiyməti.

***- Yəni milli valyuta ilə 70 manata yaxın?***

- Bəli. Amma onun qiymətini mən qoymamışam. Nəşriyyatlar özləri müəyyənləşdirir, bizimlə razılaşdırırlar.

***- Oxucu dərhal bu rəqəmləri hesablayacaq. Baxmayaraq ki, kitablardan gələn gəliri fonda köçürürsüz, maraqlanacaqlar ki, satışdan əldə edilən gəlirin neçə faizi sizindir?***

- Hər mağazanın öz faizi var. Onlar öz faizini götürür, qalan hissə müəllifə yönəldilir.

***- Rusiya və Türkiyə iqtidarlarının yaxın və keçmiş münasibətləri barədə geniş açıqlamalar verdiniz. Azərbaycan və Rusiya iqtidarlarının münasibətləri hazırda nə yerdədir? İstidir, soyuqdur, çox yaxşıdır?***

- Siz onu məndən yaxşı bilirsiz. Azərbaycan iqtidarı ilə Rusiya iqtidarının çox gözəl münasibətləri var. Ötən il Jirinovskidən tutmuş, bir çox siyasət adamına qədər Azərbaycana gəlmişdi. Parlament sədri, prezidentin özü səfərlərdə olub.

***- Sizin Azərbaycan hökuməti ilə münasibətləriniz necədir? Ümumiyyətlə, belə bir münasibət varmı?***

- Mən Azərbaycanda bizneslə məşğul deyiləm. Üstəgəl, hər hansı vəzifə daşımıram ki, hökumət orqanları ilə münasibətim də ola. Sadəcə olaraq, kimin mənə münasibəti yaxşıdırsa, mənim də ona yaxşı münasibətim var. Soyuq, laqeyd, pis münasibəti olanlara da adekvat münasibət göstərirəm.

***- Hansısa bir təklif olarsa, təcrübənizdən yararlanmaq, islahatlar kontekstində Sizdən faydalanmaq, buna reaksiyanız necə olar?***

- Aydın məsələdir ki, mən Azərbaycan vətəndaşıyam, burda yaşayıram. Azərbaycandakı problemlərə də laqeyd yanaşmağım mümkün deyil. Hansısa sahədə köməyim dəyə biləcəyini görsəm, həmişə hazıram ki, nəyisə müzakirə edim.



***- Sizin kitablarınızda Qurani Kərimdən sitatlar var. Maraqlıdır, özünüz namaza başlamaq, Həcc ziyarətinə getməklə bağlı nə düşünürsüz?***

- Bunlar daxildən gələn məsələlərdir, zamana ehtiyacı var. Mən Qurana kitab yazmağa görə müraciət etmədim ki. Bəziləri deyir ki, mən Quranı oxudum. Bu sözdən xoşum gəlmir. Gərək Quranı daxildən hiss edəsən. Mənim daxilimdə elə bir istək vardı ki, Quranı başa düşüm - Allah bizə nə göndərib? Oxuduqca əmin oldum ki, bunların mənə məşğul olduğum hüquq sahəsində köməyi dəyə bilər. Bu, mənə həm də niyə görə lazım idi? Avropaya konfransa gedəndə alimlər İslamdan, Qurandan, şəriətdən danışanda fikirlərinin yanlış olduğunu gördüm. Mən onlara cavab vermək üçün Qurana müraciət etdim.

***- Yaxın gələcəkdə kitablarınız arasında memuarlar da ola bilərmi?***

- Qorki deyirdi ki, insan öz həyatını yazmağı bacarırsa, o, yazıçı sayıla bilər. Memuar yazırsansa, gərək onda həyatında nə varsa, onu yazasan. Siz elə insan tapa bilərsiz ki, həyatında nə varsa, onu olduğu kimi səmimi yazsın? Ya da memuar yazanların çoxu bəzi hadisələri özünə sərf edən şəkildə yazır.

***- Bəs siz hər şeyi səmimi olaraq bir memuarda yazmağı düşünürsüzmü?***

- Ola bilər. Elə bir fikrim var.

***- Sizə axırıncı sualı vermək istərdik... Bir qədər əvvəl yubileyinizi qeyd etdiniz. Sizi niyə təltif etmədilər?***

- Yeri gəlmişkən, bu sualı mənə çoxları verir. Birincisi, sual ünvanına uyğun deyil, ikincisi, mənə çox xoşdur ki, məndən soruşurlar: "Niyə sizi təltif etmədilər"? Ən pisi və xoşagəlməyəni odur ki, haçansa deyirlər: "Onu nəyə görə təltif ediblər"? Düzdür, mənim Rusiyadakı dostlarım bu məsələni qaldırmaq istədilər Rusiyada. Lakin mən qəti şəkildə xahiş etdim ki, bunu etməsinlər.

***- Niyə görə ki? Axı hamı bilir ki, Siz Rusiya ilə bizim ölkəmiz arasında dostluq münasibətlərinin möhkəmlənməsi üçün çox işlər görürsünüz?***

- Bu məsələnin həm obyektiv, həm də subyektiv cəhətləri var. Tələbəlik illərindən başlamış indiyə qədər davam edən dostluq münasibətlərində olduğum bir insandan mükafat almaq o qədər də başadüşülən deyil. Bundan başqa, rusiyalı dostlarıma dedim ki, mən Azərbaycanın vətəndaşıyam, Rusiyanın yox. Hərçənd ki, bu fakt mühüm əhəmiyyət kəsb etmir. Əgər mən razılaşsaydım, yəqin ki, jurnalistlər, elə siz özünüz də deyərdiniz ki, mən rusiyayönümlüyəm. Aristotel deyir: "Uşaqları tərbiyə edənlər onları dünyaya gətirənlərdən daha çox ehtirama layiqdirlər. Çünki valideynlər bizə yalnız həyatı, müəllimlər isə yaxşı həyatı bəxş edirlər". Ola bilsin ki, Aristotel haqlıdır, mənsə ata-anamı, doğulduğum torpağı ən müqəddəs sayıram. Əgər Azərbaycan mənim üçün ana və atadırsa, haradakı mən anadan olmuşam, Rusiya isə mənim üçün harada ki, təhsil almışam - müəllimdir və mən bununla həmişə çox fəxr etmişəm, indi də fəxr edirəm. Ona görə də bu ölkəyə, bu xalqa hörmətlə yanaşıram. Əgər siz bunu rusiyayönümlülük hesab edirsinizsə, səhv edirsiniz. Mənim Rusiyaya münasibətim qətiyyən siyasətlə əlaqəli deyil. İstəyirəm ki, ölkələrimiz arasında qarşılıqlı hörmət, isti münasibətlər olsun. Bunu bizim indiki real vəziyyət tələb edir.

*(son)*

**Söhbəti qələmə aldı: Sevinc TELMANQIZI**

### "Tələbəlik illərindən başlamış indiyə qədər davam edən dostluq münasibətlərində olduğum bir insandan mükafat almaq o qədər də başadüşülən deyil"





### "Bakıdan başqa, özümü iki yerdə rahat hiss edirəm - Moskvada və İstanbulda; Avropada isə heç vaxt bir həftədən çox qala bilmirəm"

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016



# Ölkədə neft istehsalı dayandırılsa...

## Ekspertlər durumu izah edirlər; hasilatın sonradan bərpa edilməsi neçəyə başa gələcək?

**Bir neçə gün əvvəl politoloq Ərəstun Oruclu "Yeni Müsavat"a müsahibəsində müxalifətin iqtidara proqramlar vasitəsilə çıxış yolu göstərməsinə də münasibət bildirib. O, bu proqramlarda bəzi məntiqsiz təkliflərin yer aldığını da vurğulayıb: "Gəlin icazənizlə müxalifət haqqında da tənqidi fikirlər deyək. İqtisadiyyatla bağlı elə təkliflər verilir ki, bu, ən yaxşı halda acı təbəssüm doğurur. Məsələn, ortada təklif var idi ki, neft qiymətləri düşməkdə davam edərsə, Azərbaycanda neft hasilatı dayandırılmalıdır. Bu, fantastik təklif idi...".**

Onun sözlərinə görə, Azərbaycanda neft hasilatının dayandırılması qeyri-mümkün bir işdir: "Ən azı, neft nə qədər ucuzlaşsa da, istənilən halda bazarı qoruyub saxlamaq lazımdır. İkincisi, neft, qaz ölkə üçün çox vacibdir. Bu, elə şeylərdir ki, bu sərvətlərə malik olmayan ölkələr onu qızılla satın alır... Texnoloji proses olaraq bu, tamamilə mümkün deyil. Çünki həmin neft yataqlarının dayandırılması bundan sonra onun bərpasına uzun illər və on milyardlarla dollar investisiya tələb edir. Ona görə də istehsal dayana bilməz".

Ə.Oruclu təklifin hansı partiyadan gəldiyini açıqlamasa da, bunu aydınlaşdırmaq üçün ilk müraciət etdiyimiz partiya fikirləri özünə aid edib. Müsavat başqanının müavini Elman Fəttah musavat.com-a açıqlamasında bildirib ki, Ə.Oruclunun Müsavat Partiyasının hazırladığı sənəddəki fikirləri təhrif etməsindən təəssüflənir: "Müsavat təklif etmişdi ki, neftin qiyməti 30 dollardan aşağı düşərsə, neft ixracatı dayandırılsın. Biz ixracatın dayandırılmasını, stoplanmasını təklif etmişik, hasilatın dayandırılmasını deyil. Neftin depolara doldurulmasını təklif etmişik".

**Ekspert İlham Şaban isə musavat.com-a məsələ ilə bağlı bildirib ki, hasilatı dayandırmaq asan bir iş deyil:** "Bu təklifi edənlər neft hasilatını dayandırmaqla nə etmək istəyirlər? Hazırda Dövlət Neft Şirkətinin ümumi dənizdə hasilat quyularının rentabelliyi 15 dollardır. Qurudakı yataqlarda ranteballik 20 dollardan bahadır. Quruda artıq elə yataqlar var ki, onlarda hazırda rentabellik 30 dollardır. Ona görə ortalama Neft Şirkəti üçün rentabellik 20 dollardır. Hazırkı qiymət budur. Ancaq neftin qiymətinin aşağı düşməsi və hasilatın dayandırılması məsələsi qəlizdir. Belə bəyanatla çıxış edənlər, o təklifləri verənlər, sadəcə, sistemin içərisində olmayan, onu daxildən bilməyən qurumlardır. Söhbət 2016-cı ildən gedirsə, heç bir qurum, nə Beynəxalq Enerji Agentliyi, nə banklar, nə OPEK, neft və iqtisadiyyatla bağlı beyin mərkəzləri bununla bağlı, yəni kəskin ucuzlaşma ilə bağlı açıqlama verməyib. Neftin orta qiymətinin 30 dollardan aşağı olacağı ilə bağlı bir rəqəm səsləndirməyiblər. Söhbət hətta neqativ ssenaridən gedir. İkincisi, səsləndirilən rəqəmlər bütün il boyu həmin qiymətin olacağı demək deyil. Hətta bp şirkətinin rəhbəri öz fikirlərində belə bir ifadə işlədib ki, neft 20 dollara da düşə bilər. Ancaq bu, o demək deyil ki, illik neftin orta qiyməti 20 dollar olur. Çox şirkətlər öz planlarını ortaya qoyanda neftin orta qiymətini 35 dollardan hesablayırlar. Bu baxımdan, cari il üçün hələlik orta qiymət 32-37 dollar arasındadır. Bu, ən optimal variant sırasında belədir. Ancaq bəzi ssenarilərə görə, 40 dollardan götürülür, 41-42 dollarlıq ssenarilər də var. Hətta 45 dollar da var optimist variant kimi. O baxımdan, neftin qiyməti yanvar ayında 5 gün 27 dollar oldu. Ancaq bir neçə şirkət üçün onun maya dəyəri 35 dollar idi. Bu şirkətlər həmin yataqlarda neftin istehsalını dayandıra bilərdi. Ancaq o yataqlarda sonra hasilatın bərpası üçün iki ay vaxt lazımdır. Bu, psixoloji baxımdan həmin şirkət üçün ziyandır. Çünki neftin qiyməti heç vaxt düz xətlə olmadığından, bir gün düşür, bir gün qalxır. Həmişə orta qiymət əsas götürülür. Və şirkətlər də həmişə baxırlar ki, orta qiymət nə olacaq. Bu gün nefti satır 15 dollara, 1998-ci ildə hətta 9 dollardan da aşağı düşmüşdü. Orta qiymət 14 dollardan yüksək oldu. Söhbət ondan gedir ki, sonra qiymət artır. Məsələn, 2015-ci ilin dördüncü rübündə ilk onluğa daxil olan bütün neft şirkətləri milyardlarla ziyana getdilər. Ancaq ilk üç rübdə bunlar mənfəətlə işlədiklərindən, bir çoxları həmin ziyanı örtmüş oldular. Bu da neft sənayesinin ümumi iqtisadiyyatıdır. Bir ayda, üç ayda qiymətlər aşağı ola bilir, sonra qalxır. Neft qiymətləri aşağı olanda, neft emal sənayesində marja yüksəlir. Neftin qiyməti yuxarı olanda, neft emalında gəlir maksimum olur 2-3 faiz. İndi neft məhsullarında dünya bazarında gəlirlilik 15 faizdir. "Exon", "Shelf", "Total" kimi şrikətlər bu saat onun hesabına xam neftin aşağı qiymətlərini qapatmış olublar. Neftayırma zavodlarında çox yaxşı imkanları var, onun hesabına böyük gəlir götürürlər".

❑ Röya RƏFİYEVA




# "Sədərək"də ticarətçilərə 30 faizlik güzəşt

## Sahibkar: "Hər kəs istədiyi malı gətirib, burada ucuz qiymətə mağaza götürüb sata bilər"

**"Sədərək" Ticarət Mərkəzinin rəhbərliyi burada çalısan ticarətçilərdən alınan yerpulunu 30 faiz civarında azaldıb. Bu barədə musavat.com-a "Sədərək"də çalışan sahibkar Şamil Məmmədov məlumat verdi. O qeyd etdi ki, ölkə prezidenti İlham Əliyevin sahibkarlara, ticarətçilərə diqqət və qayğının artırılması ilə bağlı verdiyi göstəriş və tövsiyələrdən sonra "Sədərək" rəhbərliyi burada çalışan ticarətçilər üçün daha əlverişli mühit yaradılması üçün addımlar atıb:**

"İlk olaraq bazar rəhbərliyi yerpulunu mağazadan və onun harada yerləşməsindən asılı olaraq 25-30 faizlik güzəştlərə getdi. Həmçinin burada özəl mülk sahibləri də mağazaya görə icarə haqqını 30-50 faiz endiriblər. Bundan sonra "Sədərək"də biznes mühiti daha da canlanıb. Faktiki olaraq ölkənin digər bütün ticarət mərkəzlərində çalışan ticarətçilər bura üz tutmağa başlayıblar".

**Biznesmen dedi ki, o, əvvəllər "Binə" Ticarət Mərkəzində çalışıb:** "Məni bir biznesmen kimi orada az qala məhv etmişdilər. Qazanc bir yana, əlimdə olan maya da batırdı. Bazar rəhbərliyi rüsumları, yerhaqqını azaltmaq əvəzinə, son bir ildə 50 faizədək bahalaşdırıb. Ona görə də "Binə"də qalmaq mümkün deyil. Faktiki olaraq bu bazarın rəhbərliyi sahibkarları soymaqla məşğuldur. Bu səbəbdən pul qazanmaq, biznesini inkişaf etdirmək istəyənlər "Sədərək"də yaradılan münbit şəraitdən yararlanaraq, bura gəlirlər".

**Sahibkar dedi ki, əgər gömrük rüsumları da nisbətən azaldılarsa, həmçinin vergi tutmalarında müəyyən güzəştlər olarsa, bu, sahibkarların toparlanmasına və ticarətin canlanmasına stimul verəcək:** "Əgər qeyd edilən bu güzəştlər reallaşarsa, iş adamları qısa müddət ərzində ölkə iqtisadiyyatının inkişafına böyük töhfələr verə bilərlər. Əgər əvvəllər ticarətçi monopolistin qorxusundan ölkəyə mal gətirə bilmirdisə, alver etməyə ucuz məkan tapmırdısa, indi bu maneələr aradan qalxıb. Hər kəs istədiyi malı gətirib, "Sədərək"də ucuz qiymətə mağaza götürüb orada sata bilər".

❑ M.MAHRIZLI

# "Beynəlxalq bank işi"ndə yeni gəlişmə

## Bu ilin mayında 25 nəfərin işi məhkəməyə göndəriləcək

**"Mənim fikrim budur ki, "Beynəlxalq Bank işi" üzrə istintaq getmir". Bu sözləri "Yeni Müsavat"a vəkil Kamandar Nəsibov deyib.**

Yada salaq ki, Beynəlxalq Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyevin bu il martın 18-də istefaya getməsindən az sonra kredit borcu olanların həbsinə başlandı. 200-ə yaxın kredit milyonçusunun həbsə alınması haqda məlumatlar olsa da, tutulanlardan çox az bir qisminin kimliyi ictimaiyyətə bəllidir. Bu gün "Beynəlxalq Bank işi" üzrə həbsdə olanlar sırasında K.Nəsibovun vəkili olduğu bankın Dubay filialının rəhbəri Adil Hüseynov da var.

**K.Nəsibovun sözlərinə görə müvəkkili 9 ay əvvəl həbs olunsa da, istintaqda hərəkətlilik demək olar ki, yox səviyyəsindədir:** "İstintaq 2016-cı il mayın əvvəlində sona çatmalıdır. Gözləyirik. Adil Hüseynovun həbsindən 9 ay ötür. Bizə də ümumi şəkildə deyiblər ki, maya qədər məsələ uzanacaq. Ötən 9 ay ərzində cəmi iki dəfə istintaq hərəkəti olub. Kiçik ifadə alıblar. Ucundan-qırağından soruşdular. Pulu kimdən almısan, kimə vermisən - onu da soruşmadılar. Dedilər nə baş verib, Adil Hüseynov da cavab verdi ki, ona müqaviləni göndəriblər ki, imzalasın. O da imzalayıb və geri qaytarıb. Bir də imzalanan müqavilələr üzrə pulu hara deyiblərsə, ora da göndərib. Vəssalam. O əmrləri kimlər verdiyini də deyib. Amma onlarla üzləşmə olmayıb".



Kamandar Nəsibov

**Vəkilin sözlərindən məlum olub ki, A.Hüseynovla eyni vaxtda 25 nəfər tutulub:** "Onlardan yalnız Adil Hüseynov bankın işçisi olub. Qalanları bankdan kredit götürmüş firmaların psevdorəhbərləridir. Ona görə psevdorəhbər adlandırıram ki, onlar faktiki maaşa işləyən şəxslər olub. Pulu alanların böyük əksəriyyəti isə bu gün evlərində oturub firavan həyatlarını yaşayırlar. Firmaların sahiblərindən həbs olunanlar Cahangir Hacıyevlə Dünyamin Xəlilovdur. Qalanları - Xəqani Bəşirov, Nizami Piriyev, onun oğlu Nəsib Piriyev və daha 20 krediti faktiki alan şəxs azadlıqdadır".

**K.Nəsibov deyir ki, iş üzrə tutulanlara ittiham verilmiş maddələr də uyğun deyil:** "Əvvəl gündən deyirəm ki, bu adamların əməllərində dələduzluq yoxdur. Olsa-olsa vəzifə səlahiyyətlərini verə bilərdirlər və ya pulun təyinatı üzrə xərclənməməsini. Onu da sübut etmək lazımdır. O direktorlar sənədləri imza edəndə saxtakarlıq etdiklərini heç ağıllarına belə götürməyiblər. Onlar kim idi axı? Hamı bilir ki, Azərbaycanda biznes milli mentalitetə uyğunlaşdırılıb. Deyiblər, onlar da imza ediblər, pulu da firmaların faktiki sahibləri götürüb. Adil Hüseynov Beynəlxalq Bankın Dubay filialının müdiri olub. O, rəhbərlikdən gələn göstərişləri icra edib. Yəni deyiblər ki, müqaviləni imzala, imzalayıb. Desəydi ki, imzalamıram, onu işdən çıxaracaqdılar".

**Yada salaq ki, K.Nəsibov əvvəlki açıqlamalarından birində həbsdə saxlanılan şəxslərin bəzilərinin kimliyini də açıqlamışdı:** "Bu gün həbsdə saxlanılan günəş batareyalarının quraşdırılması ilə məşğul olan şirkətin rəhbəri Adil Mikayılov, "Azərbaycan Consaltinq Qrup" MMC-nin rəhbəri Erhan Cavad Yavuz, "City Devoloper" MMC-nin direktoru Ratmir Bəkirov kreditlərin alınması haqda sənədlərə, sadəcə, qol çəkiblər. Özləri də çox yaxşı bilirlər ki, Adil Hüseynov 317 milyon, Adil Mikayılov 80 milyon, Erhan Cavad Yavuz 170 milyon, Ratmir Bəkirov 52 milyon manatın üzünü görməyiblər və bütün əmlaklarını satsalar belə heç 3-4 milyon qaytara bilməzlər. Bu adamlar birbaşa Cahangir Hacıyevin adamlarıdır. Bu kreditlər birbaşa Beynəlxalq Bank rəhbərliyinin göstərişi, tapşırığı ilə verilən məbləğlərdir. Tutulanlar isə sadəcə icraçılardır. Şirkətlərdə direktor vəzifəsinə təyin olunublar, maaşlarını alıb sənədlərə qol çəkiblər. Onlar milyonluq kreditlərin sənədlərini görüblər. Göstərişləri yerinə yetiriblər. Adil Hüseynov və Erhan Yavuz cavandırlar, digər 2 şəxsi isə yaşlı adamlardır. Onlar 1 qəpiyin yiyəsi olmaya-olmaya həbsdədirlər".

C.Hacıyevin 51 faizi dövlətə məxsus olan Beynəlxalq Banka rəhbərliyi dövründə bankın ümumi kapitalının həcmi 8 milyard manat olub. Həmin pulun 6 milyard manatı bu gün problemli, geri qaytarılması müşkül olan kredit şəklində paylanıb. K.Nəsibovun açıqladığı faktlardan məlum olur ki, kreditlərdən azı 619 milyon manatı C.Hacıyevin özünə çatıb.

Cahangir Hacıyev ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovun qudasıdır. C.Hacıyevin bu maxinasiyaları və digər cinayətləri sabiq nazirlə əlbir həyata keçirdiyi iddia olunur.

❑ E.MƏMMƏDƏLİYEV

# Öldürülən sahibkarın xanımına verilən söz hələ də yerinə yetməyib

## Venera Rüstəmova Gəncədə zəbt edilən torpağının özünə qaytarılması üçün növbəti dəfə ölkə rəhbərliyinə müraciət etdi

**Ötən saylarımızdan birində redaksiyamıza müraciət edən sahibkar xanım Venera Rüstəmovanın prezidentə müraciətini dərc etmişdik. V.Rüstəmova bildirmişdi ki, həyat yoldaşı qətlə yetiriləndən sonra onun biznesini özü idarə etməyə başlayıb. "Qətlə yetirilən iş adamının xanımı prezidentdən kömək istəyir" sərlövhəli yazıda sahibkar xanıma məxsus olan və Gəncədə yerləşən torpaq sahəsinin zəbt olunmasından söhbət açılırdı.**

**V.Rüstəmova bir daha redaksiyamıza müraciət edərək bildirib ki, prezidentə müraciətindən sonra Gəncənin icra başçısı Elmar Vəliyev onu qəbuluna çağırıb:** "Cənab başçı görüşümüzdə üzləşdiyim problemə həssaslıqla yanaşdığını bildirdi və kömək edəcəyinə dair söz verdi. Çox sevindim. Düşündüm ki, 5 ildir çəkdiyim iztirablara son qoyulacaq. Həmin vaxtdan bu günə qədər 4-5 dəfə Gəncə şəhərində cənab Elmar Vəliyevlə görüşlərim olub. Amma əfsus ki, bunların heç bir müsbət nəticəsi olmayıb. Elmar Vəliyevlə görüşümüzdə cənab başçı dönə-dönə vurğuladı ki, sənin torpağında hardasa 15-20 ev tikilib və 20 ailəni oradan çıxartmaq mümkün olan iş deyil. Mənim mülkiyyət hüququm



pozulub. İndi sizlərdən soruşuram: mən nə edim?! Mən heç kimə əl açmıram, heç kimdən sədəqə istəmirəm. Əgər torpağımı qaytarmaq mümkünsüzdürsə, onda torpağımın dəyərini ödəsinlər. Buradan Elmar müəllimin böyük qardaşları, hərbi prokuror Xanlar Vəliyevə, o cümlədən Eldar Vəliyevə müraciət edirəm. Onlar respublikada kifayət qədər nüfuza malik böyük bir quruma rəhbərlik edirlər. Xanlar müəllim çox savadlı hüquqşünasdır. Hörmətli Xanlar müəllim, məni öz bacınızın yerinə qoyun. Mən ailə başçısını itirmiş dul bir qadınam. Azyaşlı oğlum daun sindromundan əziyyət çəkir. Günün günorta vaxtı hər kəsin gözü qarşısında vəhşicəsinə həyat yoldaşımı qətlə yetirən, azyaşlı uşaqlarımı atasız qoyan Nadir Orucovun məhkəməsi 5 ildir ki, süni şəkildə uzadılır. Sizin kimi Azərbaycanın mərd oğullarına yaraşar ki, tək qalmış dul bir qadının dərdinə şərik olasınız, əlinizdən gələn köməkliyi edəsiniz. Xanlar müəllim, çox xahiş edirəm, ağsaqqallıq göstərin, böyüklük göstərin və bu məsələnin qanuni həllinə öz töhfənizi, köməkliyinizi göstərəsiniz. Mən ancaq və ancaq tapdalanmış hüquqlarımın bərpa edilməsini istəyirəm".

**V.Rüstəmova xarici təşkilatlara müraciət etmək istəmədiyini bildirib:** "Bir daha bu məsələnin həll edilməsi üçün üzümü cənab prezidentə tutub qətlə yetirilən iş adamının həyat yoldaşı olaraq ondan kömək istəyirəm. Cənab Prezident! 5 ildir ki, mənim mülkiyyət hüququm hər hansı adi vətəndaş tərəfindən deyil, Sizin inanıb etibar etdiyiniz, böyük bir şəhərin müqəddəratını tapşırdığınız Elmar Vəliyev tərəfindən pozulub.

**Cənab Prezident!**

Bütün Azərbaycan vətəndaşlarının konstitusiya ilə hüquqlarını qoruduğunuz üçün üzümü Sizə tutub xahiş edirəm, tapdalanmış hüquqlarımın bərpası üçün Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə göstərişinizi verib mənə köməklik göstərəsiniz".

❑ **E.HÜSEYNOV**

# "İcra başçısı mənimlə "zapravka" davası edir"

## Gədəbəyli iş adamı Ramiz Yediyarovdan şikayətçidir

**Prezident İlham Əliyevin son müşavirələrdə qeyri-neft sektorunun inkişaf etdirilməsinin vacib olmasını söyləməsi, ölkədə sahibkarlığın inkişafına şərait yaradılması haqda çıxışlarından sonra ölkədə sahibkarlara münasibətin dəyişəcəyi gözlənilən idi. Ölkə başçısının məmurlara, xüsusən də icra başçılarına sahibkarlara şərait yaradılması haqda tapşırıqları da məhz ölkədəki sosial-iqtisadi durumun yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına bir çağırış idi. Lakin çox təəssüf ki, prezidentin çağırışlarından sonra da bəzi icra hakimləri fəaliyyətlərində dönüş yaratmaq istəmirlər.**

Redaksiyamıza müraciət edən Gədəbəy rayon sakini Xəyyam Əzimzadə deyir ki, icra başçısı Ramiz Yediyarov ona məxsus yanacaqdoldurma məntəqəsini yerlə-yeksan edib və icra başçısının əməlinin qanunsuz olduğunu məhkəmələr də təsdiqləyib: "Gədəbəydə Heydər Əliyev prospekti 11 "a" ünvanında mənim yanacaqdoldurma məntəqəm vardı. İcra başçısı əvvəlcə məntəqəni əlimdən almaq üçün ən müxtəlif yollara əl atdı. Alınmadı. Bundan sonra icra başçısının göstərişi ilə qanuni obyektim dağıdıldı, məni də, işçilərimi də işsiz, gəlirsiz qoydular. Orada çalışan işçilərimdən biri də Qarabağ veteranı Əli Adıgözəlov idi. Sadəcə, obyektimi dağıtdılar. Dedilər ki, guya yol çəkirlər. Sonra dedilər ki, park salırlar. Aydın oldu ki, park 100 metr o tərəfdə salınacaq. Bundan sonra da dedilər ki, məktəb tikirik. Lakin bu da yalan çıxdı. Bir də eşitdik ki, yanacaqdoldurma məntəqəsinin olduğu yeri icra başçısı zəbt eləmək istəyir. Qalmışıq məhkəmələrdə. Dövlət orqanlarının verdiyi sənədlər də torpağın, üzərindəki tikililərin mənə aid olduğunu sübut edir".

**Sahibkar deyib ki, hazırda iş üzrə Gəncə İnzibati-İqtisad Məhkəməsində iddiası üzrə araşdırma gedir:** "Əvvəlki məhkəmədə icra hakimiyyətinin yanacaqdoldurma məntəqəsini sökməsinin qanunsuz olduğu təsdiqləndi. Bundan sonra yeni bir iddia ilə məhkəməyə müraciət etdik. Bizə söküb dağıtdıqları iş yerimizi bərpa edib vermələrini və ya kompensasiya ödəmələrini tələb edirik. Necə ki, qanunsuz olaraq iş yerimizi söküblər, elə də zəhmət çəkib bərpa eləsinlər".

**İş adamı deyib ki, icra başçısının qanunsuzluqları haqda müvafiq orqanları da məlumatlandırıb:** "Mən sahibkaram, zəhmətlə qurduğum iş



AZƏRBAYCAN RESPUBLİKASININ
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ

ŞƏMKİR ƏRAZİ İDARƏSİ

DAŞINMAZ ƏMLAKIN
TEXNİKİ PASPORTU

YANACAQDOLDURMA STANSİYASI

Yanacaqdoldurma stansiyasının tipi və adı: "Pervin petrol 777"

Ünvan: Gədəbəy Şəhəri H.Əliyev prospekti -11A

Hüquq subyekti: Əzimzadə Xəyyam Mirəli oğlu

Reyestr nömrəsi: 505013001288-06301

Reis: S.Şahvələdov

Tərtib edilmə tarixi: 21.06.2011-ci il

İnventar nömrəsi: 505-01-1208

yerimi dağıdıb məni, mənim kimi yüzlərlə adamı işsiz qoymaq qanuni ola bilməz. Komissiya yaradılsın, gəlib yoxlasınlar, görəcəklər ki, tam qanunsuz olaraq Gədəbəydə sahibkarlara qarşı addımlar atılır".

❑ **E.HÜSEYNOV**

# MİS rəisi neftçini evindən çıxarır

## "10 gün vaxtın var..."

**Nizami rayonu, Mehdi Abbasov küçəsi, bina 10, mənzil 19-da yaşayan Validə Hüseynova yaşadığı mənzildən çıxarılır. Şikayətçinin dediyinə görə, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu tərəfindən verilən mənzili 3 saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfat Birliyinin əməkdaşları başqa bir şəxsə vermək istəyirlər.**



Musavat.com-un əməkdaşı şikayətçi Validə Hüseynovanın mənzilində olub və onun problemini dinləyib.

V.Hüseynova 3 saylı MİS-in əməkdaşlarının heç bir əsas olmadan onun mənzilini əlindən almaq istədiklərini dedi: "Zavodda işlədiyim üçün mənə neftçilər yataqxanasında mənzil verdilər. 2006-cı ildən məktub əsasında bu mənzilə köçmüşəm. Əvvəllər bu binada məcburi köçkünlər məskunlaşırdı. Onlar dövlət tərəfindən mənzillə təmin olunduqdan sonra köçürüldülər. Həmin ili yataqxanada qeydiyyata almırdılar. Lakin 2011-ci ildən qeydiyyata almağa başladılar və qeydiyyata düşdük. Sonradan yataqxana zavodun səlahiyyətindən çıxdı və 3 saylı Mənzil İstismar Sahəsinə verildi. Hazırda da Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda işləyirəm".

**Şikayətçi onlara 10 gün ərzində mənzili tərk etmələri üçün məktub verildiyini də dedi:** "Bu yaxınlarda 3 saylı "JEK"dən məktub gəldi. Məktubda bildirilir ki, qeydiyyatsız və sənədsiz yaşadığınız üçün 10 gün müddətində evi boşaltmağınız tövsiyə olunur. Əks təqdirdə, inzibati orqanlara müraciət olunacaq. "JEK" rəisi bizi evdən çıxarıb, aidiyyəti olmayan şirkətdə işləyən birini gətirir. Bu yataqxanada belə hallar tez-tez baş verir. Burada yaşayanların əksəriyyəti məktub əsasında yaşayır. 2011-ci ildən sonra qeydiyyata alındıq. Oğlumun ailəsi ilə birlikdə neçə ildir ki, burada yaşayırıq. Burada qeyri-qanuni bir iş yoxdur. Sadəcə, MİS rəisinin fikri bizi çöldə qoymaq, mənzili başqasına verməkdir..."

3 saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfat Birliyinin baş mühəndisi Bahadur Əsədov isə məsələdən xəbərdar olmadığını bildirdi: " Dediyiniz ünvanla bağlı məlumatım yoxdur, yalan informasiya vermiş olaram. Siz daha dəqiq məlumatı hüquqşünasımızdan öyrənə bilərsiniz. Dəstəyi asın, nömrəni yenidən yığın, sizi bağlayacaqlar".

Biz onun dediyi kimi etdik. Lakin çoxsaylı zənglərimizə baxmayaraq, MİS-dən heç kim telefonun dəstəyini qaldırmadı.

Məsələni diqqətdə saxlayacağıq.

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

# Zika hücumdadır



**Samir SARI**

**Zika virusundan söhbət düşəndə adamın ağlına birinci futbolçu Ziko düşür. Tərs kimi, Zika da Ziko kimi Cənubi Amerikada əmələ gəlib. Sadəcə, 4 yaş fərqləri var. Artur Ziko 1953-cü il təvəllüdlüdür, amma Zika 1947-ci ildə aşkarlanıb.**

Bəli, düz 69 ildir ki, Zika virusu öz qitəsində insanlara problem yaradır, canlarını alır, hazırda isə dünyaya yayılmaqdadır .

Əvvəl-əvvəl heç kəs fikir vermirdi, camaatın başı "donuz qripi"nə qarışmışdı. Açığı, "donuz qripi" rəsmən ölkəmizə gəlmiş sayılmasa da, yerli qriplərin donuz kimi şinəyib candan çıxmamasına görə çox adam şübhələnir ki, bu, elə həmin qripdir.

Elədirsə, başqa ölkələrdəkindən fərqli olaraq, bu qrup bizi niyə öldürmür, elə deyilsə, yığışıb buna bir ad qoyaq. Təsəvvür edin ki, bir-iki tanış adam var, cavan da adamdır, noyabr ayının 15-dən bəri qripdir, onun üstündə dünyada N qədər adam H1N1 virusunun qurbanı olub, qırılıb, amma bu hələ sağ-salamatdır. Salamatdır, intəhası, bir türlü sağalmır da. Nə vaxt baxırsan, naxoşdur, burnu, boğazı şişib, qızarıb, dərman reklamlarındakı xəstə pinqvinlərə dönüb. *(Kim bilir, bəlkə adam pinqvin qripidir?).*

Hər halda, bu cür qorxulu epidemiyaların, oxumuş adamlar demişkən, coğrafiyamıza yaxınlaşması artıq ölkədə müəyyən əndişə, narahatlıq, pərişanlıq və sair bu kimi şeylər yaradıb. İctimai yerlərdə, mediada söhbət tez-tez qorxulu viruslardan düşür. Odur, deyirlər, Ebola Syerra-Leonedə təzədən baş qaldırıb, Syerra-Leone bizdən çox uzaq olsa da, camaatımız təbii olaraq Eboladan da qorxur. Çünki indinin virusları sitaldır, sərhəd-filan tanımırlar, təyyarələrlə ölkəbəölkə gəzilər.

Ona qalsa, Braziliya, Kolumbiya, Meksika da uzaqdır, amma Zika qapının ağzında, təyyarə trapının üstündədir .

Bu üzdəndir ki, ölkənin baş epidemioloqu İbadulla Ağayev narahatdır. Dünən o, mediaya bildirib ki, "donuz qripi", "Zika" virusu və digər xəstəliklərin qeydə alındığı ölkələrdən gələn şəxslər müayinə olunduqdan sonra ölkə ərazisinə buraxılır.

Elə də olmalıdır. Özbaşına qoymaq olmaz. Üstəlik, o da bildirilir ki, ölkənin bütün sərhəd-keçid məntəqələrində Səhiyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin nəzarət postları fəaliyyət göstərir.

Bu da çox sevindirici xəbərdir. Gömrük Komitəsinin nəzarət postları varsa, demək, əmi canı, qəti qorxusu yoxdur. Bu o deməkdir ki, heç bir virus ölkəyə birbaşa daxil ola bilməz, mütləq gömrükdən keçməlidir. Gömrüyü də ki, bilirsiniz. Ordan heç nə icazəsiz, rüsxətsiz ("rüsxət" kəlməsini səhv salmayın) keçə bilməz. *(Hərçənd 3 tonluq mayelər sarıdan xırda istisnalar ola bilər, o da ki, necə deyərlər, "iş olan yerdə nöqsan da olar").*

Bircə iş pisdir ki, məmləkət əhlinin bir yarısı dünyanın hər yerindəki xəstəliklərdən, viruslardan qorxduğu halda, o biri yarısı heç nədən qorxmur. İkincilər eyzən deyirlər, virus-mirus boş şeydir, Allahın köməkliyi ilə bizə heç zad olmaz.

Ta demirik ki, olanda olur. Necə ki, son iki ildə "Zika" virusuna yoluxma halları 33 ölkədə qeydə alınıb. Prinsipcə, onlarda olursa, bizdə də ola bilər, amma nəyə görəsə bizdə ola bilməzmiş. Axtarsan, o virusu yayan "Aedes aegypti" növlü ağcaqanadların ən yekəsi elə bizim aran rayonlarında, çaybasar ərazilərdə yaşayır, yaradır.

Ona görə də bu məsələyə barmaqarası baxmaq olmaz. Sonra gec ola bilər, bir də görərik, yüzlərlə adam sosial şəbəkədə yazır: "Dostlar, dua edin, dayım Zika virusuna yoluxub, klinikadadır"; "Dualarınıza ehtiyacım var, arkadaşlar, nənəmi ağcaqanad dişləyib, arvad səpib, qızdırması düşmür"; "Dualarınızı əsirgəməyin, hazırda xəstəxanadayam, həkimlər Zika deyirlər" və s.

Qeyd etmək vacibdir ki, duanın-filanın Zikaya heç bir təsiri yoxdur. O virus buralara gəlsə, bizə zika-zika dedirdəcək.

**"Yeni Müsavat" qəzetinin reportyorları bir neçə gün əvvəl Qazax rayonunda ezamiyyətdə olub. Əməkdaşlarımız rayonun sosial problemləri ilə bağlı reportajlar hazırlayıb, yerli sakinlərin problemlərini işıqlandırıb. Əməkdaşlarımız həmçinin Müsavat Partiyasının Qazax rayon təşkilatının sədri İlqar Mustafayevlə görüşüb, onunla ölkədə manatın devalvasiyasından sonra yaranan iqtisadi vəziyyət, rayon camaatının qarşılaşdıqları problemlər və müxalifət partiyalarının fəaliyyəti haqda danışıblar. Söhbətdə Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) Qazax rayon təşkilatının sədri Məqsəd Mirzəyev də iştirak edib...**

# "Kənd təsərrüfatına ayrılan vəsaitlər yerli məmurlar tərəfindən mənimsənilib"

## Qazaxda müxalifət partiyalarının şöbələri dostluqlarını davam etdirir: "Biz yuxarının - mərkəzin qərarı ilə hesablaşmırıq"






**Söhbətin əvvəlində İ.Mustafayev partiyanın rayondakı fəaliyyəti haqda danışarkən bunları deyib:** "Biz Müsavat Partiyası olaraq ölkədə baş verən bütün siyasi proseslərdə fəal iştirak etmişik. Parlament seçkilərində, prezident seçkilərində, bələdiyyə seçkilərində layiqincə təmsil olunmuşuq. Seçki kampaniyalarında partiyanın qarşıya qoyduğu məqsədlərə çatmaq üçün əlimizdən gələnləri etmişik. Mübarizəmizi həmişə davam etdirmişik".

**Məqsəd Mirzəyev Müsavat Partiyası ilə KXCP-nin Qazaxdakı birgə fəaliyyətinə diqqət çəkərək qeyd edib ki, hər iki partiyanın rayondakı şöbələri arasında heç vaxt narazılıq və ayrı-seçkilik olmayıb:** "Bütün fəaliyyətimiz, mübarizəmiz bir yerdə olub. İndi də rayonda hər iki partiyanın üzvləri arasında normal münasibətlər var. Bir-birimizi həm dost, həm də müxalif düşərgənin üzvləri kimi dəstəkləyirik".

**KXCP və Müsavatın Qazaxdakı əlaqələrindən danışan İ.Mustafayev bildirdi ki, müxalifət partiyaları olaraq həmişə birgə fəaliyyət göstəriblər:** "Biz hakimiyyətə qarşı birlikdə mübarizə aparmışıq. Düzdü, deyə bilmərik ki, öhdəmizə düşən işləri yüz faiz yerinə yetirmişik, amma bunun üçün çalışmışıq. Elə problemlərimiz var ki, biz onları həll edə bilmirik. Bu da bizdən asılı olmayan səbəblərdir. Hakimiyyətin yürütdüyü bu siyasət, təzyiqlər insanları qorxudur, onlar işdən azad olunacaqları ilə hədələnirlər, təqiblərlə üzləşirlər. Təbii ki, bütün bunlar indiyə qədər bizə bir çox problemlər yaradır".

**Müsavat Partiyasının Qazax rayon təşkilatının sədri söhbəti zamanı ölkədəki iqtisadi vəziyyətin ağırlaşması ilə rayonlarda olan problemlərin daha da qabarıq şəkildə ortaya çıxdığını bildirdi. Onun sözlərinə görə, işsizlik, yaranan sosial problemlər rayon sakinlərinin ciddi narazılığına səbəb olub:** "Son zamanlar ölkədə olduğu kimi rayonumuzda da devalvasiyadan sonra çətin vəziyyət yaranıb. Banklara olan borclar əhalini daha çətin vəziyyətə salıb. Biz xalqla birlikdəyik. Çalışırıq ki, bu vəziyyətdən çıxmaq üçün xalqı səfərbər edək, bir araya toparlayaq. Artıq rayon camaatında hakimiyyətə qarşı inam itib. Gənclərimiz hamısı işsizdir. Sosial problemlərin həlli ilə bağlı heç bir iş görülmür. Rayonlarda görülən işlər dövlət büdcəsindən ayrılan vəsaitləri talamaqdır. İş yerləri yoxdur. İnsanlar başqa ölkələrə, paytaxta getməyə məcbur olurlar".

***- İlqar bəy, ölkədə iqtisadi vəziyyət ağırlaşdığı halda insanlar müxalifətin fəallaşacağını gözləyirdi. Lakin heç bir müxalifət partiyası aksiya keçirmədi. Necə düşünürsünüz, bu müxalifətə olan inamı azaltmırmı?***

- Bu vəziyyət müxalifətə olan inamı heç vaxt azalda bilməz. Ona görə ki, xalqı bu günə salan müxalifət deyil. Bunun günahkarı hakimiyyətdir. İnsanların özləri də bilir ki, müxalifətə dəstəkləri az olub. Lazım olan dəstəyi zamanında verməyiblər. Əgər dəstək verilsəydi, bu hala düşməzdilər. Ona görə də camaat müxalifətdən yox, hakimiyyətdən narazı olmalıdır. İkinci bir tərəfdən, müxalifət partiyaları olaraq biz Qazax rayonunda birgə fəaliyyət göstəririk. Bu fəaliyyət nəticəsində biz xalqın yanındayıq. Qazax rayonunda narazılıqlar çox ciddidir. Vaxtı çatanda onlar da öz etirazlarını bildirəcəklər. Bu günə qədər yaranmış vəziyyətə etiraz edən bir neçə nəfər saxlanılıb, onlara xəbərdarlıq edilib. İnsanları şantaj edirlər. Hakimiyyət xalqı bu vəziyyətə salıb. Neftin pullarını saxtakarlıq etmək üçün küçələrə tökdülər. İndi də pul yoxdur.

Pul qurtarandan sonra ağıllarına kənd təsərrüfatı düşüb. Rayonda indiyə qədər kənd təsərrüfatı ilə bağlı heç bir iş görülməyib. Camaatı susuz, yardımsız qoyublar. Kənd təsərrüfatına ayrılan vəsaitlər yerli məmurlar tərəfindən mənimsənilib. Kəndçinin torpağını da mənimsəyiblər. Rayonda oğlu əsgər gedən torpağını satdı ki, övladını cəbhə bölgəsinə göndərməsin. Xəstəsi olan torpağını satdı, krediti olan torpağını satıb borcunu verdi. Həmin torpaqlar məmurlar tərəfindən ucuz qiymətə alınıb. Deyə bilərəm ki, bütün bu narazılıqlardan sonra Qazax rayonu normal şəkildə fəaliyyət göstərən müxalif partiyanı dəstəkləyər.

***- Hər ikiniz qeyd etdiniz ki, müxalifət partiyaları olaraq birlikdə fəaliyyət göstərirsiniz. Ancaq Bakıda bir neçə müxalifət partiyasının iştirakı ilə toplantı keçirildi. KXCP və bir sıra partiyalar həmin toplantıda iştirak etsə də Müsavat Partiyası həmin görüşə qatılmadı. Qazax rayonunda birgə fəaliyyətdən danışsanız da, paytaxtda birgə fəaliyyət heç də nəzərə çarpmır. Sizcə, bunu cəmiyyət necə qəbul etməlidir?***

**M.Mirzəyev:**

- Biz yuxarının - mərkəzin qərarı ilə hesablaşmırıq. Biz burada müxalifət partiyaları kimi bir-birimizi müdafiə etməliyik. O, Bakının problemidir. Biz burada bir-birimizə etibar edirik, güvənirik. Nə olsun ki, Müsavat Partiyası həmin görüşdə iştirak etməyib? Onlara baxmayaraq biz yenə də mehribançılığımızı, birgə fəaliyyətimizi davam etdirəcəyik. Bizim rəqibimiz hakimiyyətdir. Buna görə də birlikdə fəaliyyət göstərməliyik.

**İ.Mustafayev:**

- Mən inanıram ki, zaman yetişəndə bütün müxalifət partiyaları birləşəcək. Biz burada birgə fəaliyyət göstəririk. Öz nümunəmizlə, öz xəttimizlə fəaliyyətimizi davam etdiririk. Bilirik ki, son anda, əsas məqamda hamı birləşəcək. Bunun başqa yolu yoxdur. Mən hesab edirəm ki, müxalifətin birliyinin nəticəsində bu hakimiyyət gedəcək.

***- Bölgələrdə işsizlik, sosial problemlərlə bağlı aksiyalar keçirildi. Digər rayonlarda da aksiyaların baş verməməsi üçün hakimiyyət tərəfindən bir çox addımlar atıldı. Müxalifət partiyalarının üzvləri polisə çağırıldı, onlara xəbərdarlıq edildi. Aksiyalar keçirilən ərəfədə sizə də polis tərəfindən xəbərdarlıq edildimi?***

**İ.Mustafayev:**

- Bizi polisə çağırmadılar. Ancaq başqalarından bizi soruşdurublar. Fəaliyyətimizi izləyirlər. Məlumatımız var ki, bizim haqqımızda danışırlar. Bütün rayonlarda olduğu kimi, burada da müxalifət partiyalarının üzvləri nəzarətdə saxlanılır, fəaliyyətləri izlənilir. Lənkəranda, Siyəzəndə bilirik ki, müxalif partiyaların nümayəndələrini həbs ediblər. Bu, hakimiyyətin insanları qorxutmaq üçün atdığı addımdır. Ancaq indiki şəraitdə hakimiyyətin bu siyasəti tam iflasa uğrayıb. İndi insanlar başa düşür ki, hakimiyyətin siyasəti yanlış olub. İndi hər kəs birlikdə fəaliyyət göstərməlidir. Hakimiyyətə qarşı xalqla birlikdə mübarizə aparmalıyıq.

**M.Mirzəyev:**

- Bir neçə gün əvvəl KXCP Ağstafa rayon təşkilatının sədri Ülvi Dağkəsəmənli polis şöbəsinə çağırılaraq dindirilib. Bizə polis tərəfindən birbaşa çağırış olmasa da haqqımızda araşdırmalar apararaq başqa insanlardan sorğu-sual ediblər.

❑ **Reportyor qrupu**
**Musavat.com**

# Hökumət manatı möhkəmləndirməyə çalışır...

## Vahid Əhmədov: "Manata etibarı qaytarmaq hazırda ən önəmli məsələlərdən biridir"



**Milli valyutamızın "üzən məzənnəyə" keçməsindən 50 gün ötür. Devalvasiyanın ölkə iqtisadiyyatına və bank sektoruna vurduğu ziyanın bu müddətdə aradan qaldırılması mümkün olmayıb. Ekspertlər bildirirlər ki, iqtidar manata həyat verməyə çalışır. Manatla bağlı vəziyyətin sabitləşəcəyinə inam artıq rəsmi səviyyədə elan olunmaqdadır. Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyevin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov AzTV-yə müsahibəsində bildirib ki, mart ayından etibarən Mərkəzi Bank, eyni zamanda Palata və digər aidiyyəti qurumlar ölkədə manatın likvidliyinin artırılması istiqamətində çox ciddi qərarlar qəbul edəcək: "Çox yaxın müddətdə ölkədə manatın aktivliyi tamamilə bərpa olunacaq". Ekspertlər isə musavat.com-a manatın yaxın gələcək üçün gözlənilən aqibətindən danışıblar.**

**Milli Məclisin deputatı Vahid Əhmədov** musavat.com-a bildirib ki, manata etibarı qaytarmaq hazırda hökumət üçün ən önəmli məsələlərdən biridir: "Çünki manat 2015-ci ildə iki dəfə devalvasiyaya uğrayıb. Bu da banklar arasında qeyri-müəyyən vəziyyət yaradıb. Son vaxtlar bank sistemində aparılan islahatlar manata müəyyən qədər inamı artırır. Müvəqqəti də olsa, dollar müəyyən qədər düşür, manat bir az möhkəmlənir. Amma mən belə hesab edirəm ki, bu, uzun müddət davam edə bilməz. Çünki hələlik hökumətin atdığı addımların öz bəhrəsini verməsi üçün vaxt lazımdır. Əlbəttə ki, əsas bank sistemində gedən islahatların uğurla həyata keçirilməsidir. Bank sistemindəki islahat əsasən bankların birləşdirilib iri bankların yaradılmasıdır ki, onların dövriyyə vəsaiti çox böyük olsun ki, orada ciddi problem yaranmasın, bank faizləri aşağı olsun. Amma mən baxıram hətta vaxtı keçmiş kreditlərin də miqdarı artıb, 1,4 milyard manat idisə, artıq 1,5 milyard manata qalxıb. Yəni manatın arxasında hazırda neft və neftin qiyməti durur. Ona görə də müəyyən vaxt üçün müəyyən addımlar atılacaq. Amma hökumətin gördüyü tədbirlər, xüsusilə İqtisadiyyat, Maliyyə Nazirliyinin, dövlət başçısının verdiyi sərəncamlar qeyd edilməlidir. Fərmanlar hələ qüvvəyə minməyib, qol çəkiləndən sonra ola bilər müəyyən qədər manata təsirini göstərsin. Amma biz istədik, istəmədik, manat bizim milli valyutamızdır və çalışmalıyıq onu möhkəmləndirək. Yəni biz nə vaxt qeyri-neft sektorunu yüksək vəziyyətə gətirə bilsək, əlbəttə, onda manatın stabilliyindən söhbət aparmaq olar".

**V.Əhmədov manatın devalvasiya təhlükəsindən də danışıb:** "Devalvasiya ola da bilər, olmaya da bilər. Bu, hökumətin atdığı addımlardan asılıdır. Bizim üçün yaxın və gələcək perspektiv var. Bu gün üçün qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının ixracını yüksək səviyyədə artırmalıyıq. Kənd Təsərrüfatı Nazirliyi işlər görür. Amma kənd təsərrüfatının inkişafına diqqət artırılmalıdır. Bir də vaxtilə özəlləşdirilən müəssisələr var ki, hazırda işləmir. O müəssisələri işə salmaq lazımdır. Ümumiyyətlə, qeyri-neft sektoru inkişaf etməsə, neftin qiymətində də artım olmasa, manat təhlükədə olacaq. Manata təhlükə hələ qalmaqdadır. Devalvasiyanın olmaması Azərbaycan hökumətinin, Mərkəzi Bankının apardığı siyasətdən asılıdır".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Avropa İttifaqı yolunu Qarabağdan salır, yoxsa...

## Bölgədə böyük maraqları olan nüfuzlu beynəlxalq təşkilatın münaqişə ocaqlarının söndürülməsi işinə girişəcəyi ehtimalı var; politoloq: "Avropa İttifaqının konfliktin həllinə artan marağı Azərbaycanın maraqlarına uyğundur"

**ATƏT-in Minsk Qrupunun açıq şəkildə ermənipərəst mövqedən çıxış etməsindən sonra rəsmi Bakı açıq şəkildə bu quruma etimadsızlığını ifadə edib. Erməni tərəf həmsədrlərin növbəti "turist" səfərinin anonsunu verməsinə baxmayaraq, Azərbaycan rəsmiləri dipomatları gözləmədiklərini vurğulayıblar.**

Azərbaycan XİN-in rəsmi mövqeyi belədir ki, Minsk Qrupu əvvəlcə Strasburqda Ermənistanın təcavüzkarlığını ifşa edən qətnamələrin qəbuluna qarşı cəhdlərini əsaslandırmalı, nədən işğalçının yanında olduqlarının izahatını verməlidirlər. Hələlik hər hansı əsaslı mövqe səslənmədiyi üçün Bakının həmsədrlərlə danışmağa faktiki olaraq, sözü qalmır.

20 ildən artıq müddətdə fəaliyyətsizlikləri ilə diqqət çəkən həmsədrlərin mövqeyi Azərbaycanı həmsədr ölkələrə etiraz məktubları göndərməyə vadar edib, lakin hələlik hər hansı cavab gəlməyib. Maraqlısı budur ki, artıq Minsk Qrupunun yararsızlığı beynəlxalq miqyasda etiraf olunmaqdadır. Hesab olunur ki, yaxın ərəfədə bu təşkilata əlavə nəfəs verilməsə, ən azı işğala məruz qalan tərəfin etibarından məhrum olmuş bir qrupun mövcudluğunun heç bir mənası qalmayacaq.

Almaniyanın həmsədrliyə əlavə olunması təklifinin dartışıldığı bu dönəmdə əlavə bir təklif də müzakirə predmetidir. Belə ki, bəzi ekspertlər Avropa İttifaqının Qarabağ münaqişəsinin həll prosesində aktiv iştirakını istəyir. Qeyd edək ki, bu qurum nüfuzuna görə daha irəli gedib və İran böhranı kimi ağır situasiyalarda ortaya mövqe qoyub, prosesi uğurla məntiqi sonluğuna çatdırıb. Yeri gəlmişkən, Avropa Parlamenti Azərbaycan ərazilərinin işğal faktını iki qətnaməsində sərt dillə rəsmiləşdirib ki, bu da Avropa İttifaqına əlavə arqument verir. Bir neçə gün əvvəl Avropa İttifaqı məsələləri üzrə ixtisaslaşmış, Brüsseldə mənzillənən nüfuzlu Avropa Siyasəti Mərkəzi Dağlıq Qarabağ münaqişəsinə dair geniş təhlil hesabatını yaydı. "Dağlıq Qarabağ və Avropa Sərhədlərində Böhranlar Mənbəyi" adlı hesabatın müəllifləri Amanda Paul və Dennis Sammut yazıb ki, Avropa İttifaqı bu münaqişənin kənarında qalaraq, əvəzində bu yükü tamamilə ATƏT-in Minsk Qrupunun çiyinlərinə yükləyib. Hesabatda qeyd olunur ki, ittifaqın Azərbaycan və Ermənistana təsir alətləri olmasa da - hər iki ölkə Avropa İttifaqı ilə assosiasiya sazişinə qoşulmaqdan imtina edib - qurum bu münaqişəyə tamamilə biganə qala bilmir. Erməni tərəf bugünlərdə Azərbaycanın neft yataqlarını vura biləcəyi ilə hədələmişdi, bu, faktiki olaraq bölgədə maraqları olan Avropaya təhdiddir.

Bu mənada Aİ-nin prosesdə aktiv rol oynaması həm də öz maraqları baxımından əhəmiyyətli sayılır. Söz düşmüşkən, ötən ay Brüsseldə keçirilən Aİ-Ermənistan Əməkdaşlıq Şurasının iclasının yekununda qəbul edilən bəyanatda da münaqişəyə görə narahatlıq ifadə olunmuşdu. "Aİ bir daha təsdiq edir ki, Dağlıq Qarabağ məsələsində status-kvonun saxlanması qəbuledilməzdir. Münaqişənin həlli prosesi isə Aİ-nin prioritetleri arasındadır", - deyə sənəddə qeyd olunurdu. Bugünlərdə Avropa ittifaqından Minsk Qrupunun fəaliyyətsizliyi ilə bağlı narahatlığın ifadə olunması isə mövzunu daha da aktuallaşdırır.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, ATƏT-in Minsk Qrupunu hər hansı bir qurumla, hətta Avropa Birliyi ilə də əvəzləsələr, bu məsələ müsbət həllini tapmayacaq:** "Çünki burada bir neçə məqam var: birincisi, bu gün ATƏT-in Minsk Qrupu BMT-nin mandatına uyğun şəkildə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışır. Təsəvvür edin ki, bu gün heç BMT-nin özü işğal olunmuş rayonların qeyri-şərtsiz boşaldılması ilə bağlı qəbul etdiyi dörd qətnaməni icra edə bilmir. İkincisi, BMT-nin Təhlükəsizlik Şurasının beş üzvündən üçü - Çin və Böyük Britaniyadan başqa - ATƏT-in Minsk Qrupunda təmsil olunur. Buna baxmayaraq, yenə də deklorativ çıxışlardan başqa irəliyə bir addım belə atılmayıb. Yəni tək Avropada söz sahibləri deyil, bütün dünya dolayı yolla münaqişənin tənzimlənməsi ilə məşğul olur. Lakin Ermənistanın xeyrinə olaraq status-kvo saxlanmaqdadır".

**A.Nağıyev qeyd etdi ki, bu gün böyük meqalayihələrin həlli regionla bağlı olduğu üçün bir sıra təşkilatlar artıq bu məsələnin həllinə önəm verməyə çalışır:** "Bizim üçün əsas şərt ilk öncə ərazi bütövlüyümüzdür. Buna görə də Paris və Madrid prinsipləri var. Ən önəmli məsələlərdən biri də dini məsələdir. Fikir verin, bu gün artıq uzun bir zaman kəsiyində bir-biri ilə az qala düşmən mövqeyində olan Dünya Katolik Kilsəsinin və Rusiya xristianlarının rəhbərləri görüşmək və dostluq münasibətini göstərmək qərarına gəliblər. Məzhəb ayrılığını ortaya salan Qərb artıq bu varianta da əl atır. Bu gün Qərb Azərbaycanla münasibətlərin istiləşməsi istiqamətində addımlar atır. Buna bariz nümunə kimi dövlət başçımız İlham Əliyevin Londona dəvətini və Dağlıq Qarabağla bağlı mühüm çıxışını da də göstərmək olar. Yəni bu, yeni bir mərhələnin başlanğıcı kimi də qiymətləndirilə bilər. Lakin bütün bunlara baxmayaraq, regionda maraqlı olan supergüclərin, o cümlədən ABŞ və Rusiyanın rəyi mütləqdir. Yəni tək Ermənistana mövqe nümayiş etdirməyə qalsaydı, məsələ istənilən formada həllini tapardı. Bu günsə nüfuz davası getdiyi üçün güclü siyasətlə yanaşı, güclü ordu və qələbə əzmi də əsasdır".




**Konfliktoloq Elxan Mehdiyev xatırlatdı ki, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi numayəndəsi var:** "Əvvəlki nümayəndə bir ara bu işlərlə məşğul olmağa cəhd etdi, amma həmsədrlərin etirazı və müqaviməti ilə üzləşdi. Sonradan onlar daha çox "prosesə" kömək məqsədilə bölgədə inam yaratmaq təşəbbüsləri ilə çıxış etdilər. Eyni zamanda Dağlıq Qarabağ nümayəndələrini də siyasi müzakirələrə qoşmaq istəyirlər. Eynilə Dağlıq Qarabağda iqtisadi və humanitar sahədə işlər görmək niyyətindədirlər. Dağlıq Qarabağ separatçılarının liderləri ilə də görüşləri bu qəbildəndir".

**E.Mehdiyevə görə, onlar bunu xoş niyyətlə etmək istəyirlər:** "Amma Dağlıq Qarabağ erməniləri bundan beynəlxalq tanınma kimi istifadə etməyə çalışır. Avropa Birliyinin vasitəçiliyi mümkün görünmür, çünki həmsədrlər etiraz edir. Nəzərə almaq lazımdır ki, Avropa Birliyinin iki böyük dövlətindən biri Fransa qurumdadır. Almaniya və başqa dövlətlər isə onların iradəsinin əleyhinə təşəbbüsdə olmaz. Bu baxımdan hələ də həmsədrlər Azərbaycanın başını qatmağa çalışacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından narahatdır:** "Avropa İttifaqı məsələləri üzrə ixtisaslaşmış nüfuzlu Avropa Siyasəti Mərkəzinin (European Policy Center) Dağlıq Qarabağ münaqişəsinə dair keçən həftə yaydığı geniş hesabat da bundan xəbər verir. Birincisi, hesabatda vurğulanıb ki, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişənin kənarında qalaraq, əvəzində bu yükü tamamilə ATƏT-in Minsk Qrupunun çiyinlərinə yükləyib. Bunun əsas səbəbi kimi Avropa İttifaqının Azərbaycan və Ermənistana təsir alətləri olmadığı göstərilib. Həqiqətən hər iki ölkə Avropa İttifaqı ilə assosiativ sazişə qoşulmaqdan imtina edib. Halbuki Azərbaycan və Ermənistan bu sazişə imza atsaydılar, Brüsselin Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolu arta bilərdi. İkincisi, baxmayaraq ki, Avropa İttifaqı münaqişənin həllində fəal rol oynaya bilmir, Brüssel cəbhə bölgəsindəki hazırkı vəziyyətdən və atəşkəsin pozulmasından ciddi narahatdır. Çünki Azərbaycanın iştirakı ilə böyük regional enerji layihələri reallaşır. Azərbaycanın əsas iştirakçısı olduğu tranzit və enerji layihələri isə bölgəni Avropa ilə birləşdirəcək. Buna görə də Avropa İttifaqı bölgədə sabitlikdə maraqlıdır".

**E.Şahinoğluna görə, Brüssel haqlı olaraq şübhələnir ki, Azərbaycanla Ermənistan arasında müharibə başlasa, həmin layihələri təhlükə gözləyəcək:** "Digər tərəfdən, Brüsselin başqa bir qorxusu ondan ibarətdir ki, Rusiya müharibə vasitəsilə regional layihələrin reallaşmasına mane olacaq. Üçüncüsü, Avropa İttifaqı da o qənaətdədir ki, Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi Azərbaycanla Ermənistan arasındakı sülhü uzaqlaşdırır. Çünki Rusiya Azərbaycanla Ermənistanın barışması hesabına Türkiyənin Cənubi Qafqazda rolunun möhkəmlənməsini istəmir. Rusiya Ermənistana təzyiqini artırmaqla Türkiyə ilə Azərbaycan arasındakı müttəfiqlikdən də ehtiyat edir. Beləliklə, Avropa İttifaqının hesabatından çıxan ümumi nəticə budur ki, Brüssel Azərbaycanla Ermənistanı barışdırmaq üçün Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı olsa da, Rusiyanın bu prosesə təsir imkanları daha böyükdür. Digər tərəfdən, Avropa İttifaqı Rusiyanın bu təsirinin münaqişənin həllinə yox, onun dondurulmasına yönəldiyini etiraf edir".

**Politoloqun sözlərinə görə, Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsinin həllinə artan marağı Azərbaycanın maraqlarına uyğundur:** "Çünki Avropa İttifaqı və Avropa Parlamenti Ukraynanın ərazi bütövlüyünü dəstəklədikləri kimi Azərbaycanın ərazi bütövlüyünü də dəstəkləyir. Avropa Parlamenti müxtəlif illərdə bir necə qətnamə qəbul edərək Ermənistanın Dağlıq Qarabağ ətrafındakı torpaqları azad etməyə çağırmışdı. Avropa Siyasəti Mərkəzinin hesabatında da deyilir ki, Avropa İttifaqı, nəhayət, Qarabağ münaqişəsinin çözümü istiqamətində konkret addımlar atmalıdır. Belə olmazsa, Avropa İttifaqının birbaşa sərhədlərində olan münaqişənin çözümündə heç bir rola malik olmaması təsəvvürü yaranacaq. Hesabatın əsas yekunu bundan ibarətdir ki, Qarabağ münaqişəsi bundan sonra Rusiyanın periferiyasında lokal problem kimi deyil, Avropa İttifaqının qonşuluğunda qorxulu sabitsizlik mənbəyi və potensial böhran kimi qiymətləndirilməlidir. Əgər Avropa İttifaqı Dağlıq Qarabağla bağlı gələcək fəaliyyətində Avropa Siyasəti Mərkəzinin bu hesabatını əsas kimi götürsə, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki təktərəfli vasitəçiliyinə alternativ yanaşma ortaya qoymalıdır".

**Politoloq xatırlatdı ki, rəsmi Bakı Avropa İttifaqı ilə assosiativ saziş imzalamasa da, Brüsselə strateji sənəd imzalamağı təklif edib:** "Böyük ehtimalla, Bakının hazırladığı bu sənəddə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bənd də var. Assosiativ sazişdə Dağlıq Qarabağla bağlı bəndlər yox idi. Ona görə də rəsmi Bakı assosiativ sazişə maraq göstərmədi. Əgər Brüssel yeni sənəddə Azərbaycanın ərazi bütövlüyünü vurğulayan bəndi qəbul etsə, onda bu sazişin imzalanması Azərbaycanın xeyrinə olacaq. Bu halda Minsk Qrupu həmsədrlərinin fəaliyyətindən narazı olan rəsmi Bakı danışıqlarda Avropa İttifaqının da fəal olmasını istəyəcək. Buna baxmayaraq, Avropa İttifaqı ilə strateji sənədin imzalanması üçün Brüsselin də Bakıya ünvanladığı şərtlər var. Bu şərtlər Azərbaycanda siyasi, iqtisadi və məhkəmə islahatlarının dərinləşdirilməsi və Dünya Ticarət Təşkilatına üzvlüklə bağlıdır. Rəsmi Bakı öz növbəsində Brüsselin bu şərtlərini qəbul edərsə, strateji sənədin imzalanması üçün maneə qalmayacaq".

Belə görünür Avropa İttifaqı da Qarabağ münaqişəsinin tənzimlənməsinə qoşulmasının qarşılığında rəsmi Bakıdan və İrəvandan asossiativ sazişə imza atmasını istəyir. Bu isə Rusiya təhdidlərinin fonunda kifayət qədər problemli görünür.

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016

# Avtomatlılar Ağstafada fermaya basqın etdi



**Ağstafada fermaya silahlı basqın olub. Virtualaz.org saytı xəbər verir ki, bu barədə APA agentliyinə zərərçəkən sahibkar İsrafil Abdullayev məlumat verib. Onun sözlərinə görə, fevralın 3-də gecə saatlarında avtomatlı və maskalı 4 nəfər atlı ona məxsus fermaya basqın edib. Maskalı şəxslər fermada olan çobanlar - 1970-ci il təvəllüdlü Qabil Məmmədov və 1986-cı il təvəllüdlü Ayaz Abdıyevi otağa salaraq qapını arxadan bağlayıb, 40 baş iri və xırda buynuzlu heyvanı aparıblar.**

Sahibkarın dediyinə görə, hadisə baş verən günün səhəri çobanlarla birgə heyvanların izinə düşüblər: "Heyvanların ayaq izləri bizi Gürcüstan sərhədinə apardı. Belə məlum olur ki, oğurlanan mal-qaranı Gürcüstana keçiriblər".

İ.Abdullayev qeyd edib ki, baş vermiş hadisə ilə bağlı polis və prokurorluq orqanlarına, həmçinin Gürcüstanın hüquq-mühafizə orqanlarına məlumat verilib.

Ağstafa Rayon Polis Şöbəsindən faktı təsdiqləyiblər. Bildirilib ki, hazırda Dövlət Sərhəd Xidməti ilə birgə araşdırmalar davam etdirilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## lham Mirzəyevin səhhəti ağırlaşıb

**Dələduzluqda təqsirləndirilərək həbs olunan aparıcı İlham Mirzəyevin səhhətində problemlər yaranıb. Bu barədə «Trend»ə İ.Mirzəyevin vəkili Telman Abdiyev məlumat verib. Vəkil bildirib ki, T.Mirzəyevin fəqərəsində ciddi problemlər yaranıb: "İlham Mirzəyevin ağrılardan ayaqları tutulub. Bu barədə Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinə müraciət etdik. Həkim briqadası tərəfindən müayinə olunub. Həkimlər ona fəqərə yırtığı ilə bağlı diaqnoz təyin edib və ilkin tibbi yardım göstərilib. Hazırda İlham cəzaçəkmə müəssisəsində müalicə olunur. Yaxın günlərdə səhhətində irəliləyiş olmasa, İlham Mirzəyev Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürüləcək".**

Xatırladaq ki, İ.Mirzəyev 2014-cü il aprelin 11-də dələduzluq ittihamı ilə həbs olunub. İttihama əsasən, teleaparıcı direktoru olduğu "İlhamed" tibb mərkəzində Aynur Əhmədova adlı vətəndaşa cadugərlik yolu ilə yalan vədlər verərək, onun 3000 avro pulunu mənimsəyib. Lakin İ.Mirzəyev ittihamı rədd edir və deyilənlərin yalan olduğunu bildirir. Nərimanov Rayon Məhkəməsi İ.Mirzəyevin 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsi barədə hökm çıxarıb. Sonra Bakı Apelyasiya Məhkəməsi onun barəsində olan hökmü dəyişib və cəzanın müddəti 3 il 6 aya endirilib.

## Azərbaycana külli miqdarda narkotik keçirən iranlı yaxalandı



**İrandan Azərbaycana narkotik keçirən şəxs polis tərəfindən yaxalanıb. «Trend»in Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Biləsuvar RPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran vətəndaşı Bani Nazı Mansoor Karamdan 2 kiloqram 535 qram heroin götürülüb.**


**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## "Qızıl Məryəm"in qatillərindən daha biri yaxalandı

**Yanvarın 5-də yaşadığı mənzildə Məryəm Namidzadəni (Qızıl Məryəm) bıçaqla qətlə yetirən Bakı şəhər sakini, 19 yaşlı Ceyhun Əsgərov tutulub. Publika.az Kəpəz TV-yə (Region TV) istinadən xəbər verir ki, Əsgərov izahatında evdən yalnız 120 manat pul götürdüyünü bildirib.**

Araşdırmalar zamanı qətlin mərhumun qızı 28 yaşlı Günel Hüseynovanın və bacısı oğlu 28 yaşlı Nicat Eyvazovun sifarişi ilə törədilməsi müəyyən edilib.

Qeyd edək ki, Günel Hüseynova və Nicat Eyvazov tutulub.

## DYP əməkdaşları bu il Bakıda 144 min inzibati protokol tərtib edib

**Bakıda bu ilin əvvəlindən indiyədək qayda pozan sürücülərə qarşı DYP əməkdaşları tərəfindən 144 minədək inzibati protokol tərtib edilib. Bu barədə "Report"a Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Dövlət Yol Polisi İdarəsinin (DYPİ) İctimai Əlaqələr Bölməsinin rəisi polis polkovniki Vaqif Əsədov bildirib.**

Bölmə rəisi vurğulayıb ki, cari ilin əvvəlindən bu günə qədər qayda pozan sürücülər barəsində DYP əməkdaşları tərəfindən 84 488 inzibati protokol tərtib edilib: "Bundan başqa, Mərkəzi Məlumat Xidmətinin (MMX) texniki vasitələrinin köməyi ilə aşkar olunan 59 474 qayda pozuntusuna görə sürücülərə İnzibati Xətalar Məcəlləsinin (İXM) müvafiq maddələri əsasında elektron protokol tərtib olunub. Bu müddət ərzində 1 564 sərxoş sürücü aşkarlanıb, işıqforun tələblərini pozmaqla 1 188 qayda pozuntusu qeydə alınıb".

## Azərbaycanlı iki zərbəyə şirkət sədrini öldürdü

**Rusiyada azərbaycanlı şirkət rəhbərini qətlə yetirib. APA-nın verdiyi xəbərə görə, hadisə fevralın 6-da gecə saatlarında Tula vilayətində baş verib. Elektromontaj işləri ilə məşğul olan "Balqa" MMC-nin direktoru Oleq Buyanov kafe yaxınlığında öldürülüb.**

Vilayət üzrə İstintaq Komitəsinin yaydığı məlumata görə, firma direktoru ilə milliyyətcə azərbaycanlı olan tanışı arasında münaqişə baş verib. Münaqişəyə səbəb O. Buyanovun azərbaycanlıya borcu olub. Həmyerlimiz O. Buyanova iki zərbə endirib, nəticədə o, hadisə yerində ölüb.

Faktla bağlı cinayət işi açılıb.

## Yeyib-içib qonağı bıçaqladılar

**Yevlaxda bıçaqlanmaya görə axtarışa verilmiş bir nəfər tutulub. Lent.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, Yevlax RPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 5-də Azər Əhmədova bıçaqla xəsarət yetirmiş qrupun digər üzvü - şəhər sakini, əvvəllər məhkum olunmuş İsmayıl Ramazanov tutulub.**

Məlum hadisə ilə bağlı daha əvvəl Yevlax şəhər sakini Lyudmila Novruzlu da saxlanılmışdı. Aparılan araşdırmalarla müəyyən edilib ki, hadisə L.Novruzlunun evində baş verib. Belə ki, hadisə baş verən gün L.Novruzlunun evində içki məclisi təşkil edilib. Məclisdə L.Novruzlu ilə yanaşı, Azər Əhmədov, İsmayıl Ramazanov və onun həyat yoldaşı iştirak edib. Onlar yeyib-içdikdən sonra aralarında münaqişə yaranıb. Belə ki, sərxoş halda olan A.Əhmədov İ.Ramazanova həbsxanada onun qardaşı ilə birgə cəza çəkdiyini deyib və barəsində xoşagəlməz sözlər işlədib. Bundan sonra məclisdə dava düşüb və əvvəlcə Lyudmila Novruzlu bıçaqla A.Əhmədova zərbə endirməyə çalışıb. Fiziki cəhətdən daha güclü olan A.Əhmədov sərxoş vəziyyətdə olan qadının onu bıçaqlamasına mane olub. Daha sonra isə İ.Ramazanov A.Əhmədovu kənara çəkərək bıçaqlayıb.

Faktla bağlı Yevlax Rayon Polis Şöbəsində başlanmış cinayət işinin istintaqı davam etdirilir.

## Nardaranda bədbəxt hadisə

**Bakı sakini bədbəxt hadisə nəticəsində ölüb. AzVision.az xəbər verir ki, hadisə Sabunçu rayonunun Nardaran qəsəbəsi ərazisində baş verib. Belə ki, qəsəbədə aparılan təmir-tikinti işləri zamanı Şərur rayon sakini Pərviz Əliyev "CSB" markalı traktorla manevr edərkən traktorun kovşu orada fəhlə işləyən Bakı şəhər sakini Araz Hümbətova dəyib.**

A.Hümbətov xəstəxanaya yerləşdirilib və orada ölüb. Araşdırma aparılır.

YENİ MÜSAVAT
N 30 (6351) 9 fevral 2016

**Bir neçə gündür ki, ərzaq məhsullarının qiymətində növbəti artım müşahidə edilir. Devalvasiyadan sonra kəllə -çarxa qalxan qiymətlər bir müddət sabit qalsa da bu proses uzun çəkmədi. Belə ki, axır 3 gündə bir sıra ərzaq məhsullarının qiymətində ciddi yüksəlmə müşahidə edilir. Bir neçə marketlərdə apardığımız müşahidələr bunu deməyə əsas verir.**

# Ərzaq yenə bahalaşdı - qiymət təzə, səbəb köhnə...

## Ekspert: "Hazırda şirkətlər qeyri-rəsmi icazələr çərçivəsində qiymət artımına başlayıb..."







Ancaq marketdən-marketə qiymət artımında müəyyən fərqlər var. Belə ki, "Makro Market", "Rahat Market"də qiymət artımı kiçik marketlərə nisbətən daha çoxdur. Belə ki, çaylardan 500 qramlıq "Paşa"çayı 6 manat 40 qəpiyə, 585 qramlıq "Final" çayı 6 manat 85 qəpiyə, "Azərçay" qramından asılı olaraq 5 manat 74 qəpik, 8 manat 25 qəpiyə, 450 qramlıq "Berqa" çayı 6 manat 90 qəpiyə satılır. Düyülərdən "Ruschmand" 1 manat 47 qəpiyə, "Bizim tarla" 1 manat 70 qəpik, un 1 manat 25 qəpiyə, qarabaşaq isə 2 manat 60 qəpiyə satılırdı. Qəndlərin qiyməti 1 manat 55 qəpikdən 4 manat 35 qəpik arası dəyişir. Hətta "Galina Blanka"nında qiymətində daha 5 qəpik artım olub - 20 qəpik.

Həmçinin əvvəllər 1 manata satılan "Rolton" supları indi 1 manat 55 qəpiyədir. Konservləşdirilmiş balıq məhsullarının qiyməti isə 1 manat 20 qəpikdən başlayaraq, 4 manat 68 qəpik arasında dəyişir. 1 manat 80 qəpiyə olmuş tomat isə indi 2 manat 40 qəpiyədir. Adi suların, meyvə sularının və spirtli içkilərin qiymətində də artım müşahidə etdik. Habelə, salfetlərin qiymətində növündən asılı olaraq, əlavə 20-30 qəpik bahalaşma var. Əvvəllər kilosu 6 manata satılan konfetlər indi 8 manata satılır. Ümumilikdə konfetlərin qiyməti 8-20 manat arasında dəyişirdi. Şorların qiyməti 1 manat 55 qəpikdən, qatıqların qiyməti 1 manat 60 qəpikdən, südlər isə 1 manat 30 qəpikdən başlayaraq satılırdı.

Quru meyvələr 7 manat 10 qəpiyə, qoz ləpəsi 19-25 manat arası, keşyu 19 manat 20 qəpik, badam 22 manat, ərik qurusu 15 manat 60 qəpiyə idi. Yuyucu vasitələrinin də qiymətində kəskin artım müşahidə olunur. Belə ki, əvvəl 1 manat 70 qəpiyə satılan "Ariel" yuyucu tozu indi 1 manat 95 qəpiyə, "Persil" 2 manat 15 qəpiyə, "Boss" 3 manat 20 qəpiyə, "Vernel" 3 manat 75 qəpiyə, "Finish" 3 manat 50 qəpiyə satılır. Qab şampunlarından "Fairy"nin qiyməti qramından asılı olaraq 2 manat 39 qəpik, 3 manat 50 qəpiyə, "Bello" 1 manat 30 qəpiyə satılırdı. Şampunlardan əvvəllər 1 manat 40 qəpiyə satılan "Wash & Go" 2 manat 20 qəpiyə, 3 manat 80 qəpiyə satılan "Elidor" indi 4 manat 20 qəpiyə təklif edilir. Diş məcunlarından olan və əvvəl 1 manat 70 qəpiyə satılan "Colgate" 2 manat 35 qəpiyə satılırdı.

Satıcılardan bahalaşmanın səbəbini soruşsaq da, sualımıza tutarlı bir cavab ala bilmədik. Onlar ya bunun səbəbini bilmədiklərini deyir, ya da firmadan baha gətirildiyini söyləyirdilər. Maraqlıdır, qiymətlərin yenidən bu qədər bahalaşmasına səbəb nədir?

**İqtisadçı ekspert Rəşad Həsənov səbəb kimi öncə hökumətin qiymət artımına qarşı olan təzyiqinin azaldığını qeyd elədi:** "Bir çox idxalçı şirkətlər öz depolarında olan məhsulların satışını həyata keçirir. Devalvasiyadan sonrakı dövrdə hökumət müəyyən formada inzibati üsullarla sektorda tənzimləmə apararaq qiymət artımının mümkün qədər qarşısını almağı düşünürdü. Təbii ki, bu doğru yanaşma deyil. Hazırda yeni partiya məhsulların ölkəyə daxil olması və təbii ki, dollarla ifadədə bu məhsulların maya dəyərinin yüksək olması məhsulların qiymətində mərhələli şəkildə artımlara səbəb olub. Adətən devalvasiya və devalvasiyadan sonrakı 1-2 ay ərzində hökumət daha aktiv olur. Daha doğrusu, hökumət cəmiyyətin həssaslığını nəzərə alaraq ətrafa bu məsələ ilə bağlı administrativ təzyiqlər göstərərək müəyyən dövr üçün əhalini yeni yaranmış situasiyaya adaptasiya olmasını gözləyir. Bundan sonra zaman keçdikcə təbii ki, bu təzyiqlər azalır və yavaş-yavaş mərhələli şəkildə şirkətlər qiymətlərin tənzimlənməsi istiqamətində işlər görürlər. Bir çox məhsulların idxalçıları, eyni zamanda ölkədaxili istehsalçıları İqtisadi İnkişaf Nazirliyi ilə müəyyən qədər əlaqələr yaradaraq qiymət artımlarını əssaslandırmağa cəhd göstərirdilər. Bu da müəyyən zaman tələb edirdi. Təbii ki, daxili istehsalın xammal baxımından asılılığı yerli məhsulların hansı faiz dərəcəsində devalvasiyadan sonra bahalaşmasını müəyyənləşdirməyi tələb edir. Bununla bağlı istehsalçılar və idxalçılar nazirlik qarşısında qeyri-rəsmi formada müəyyən arqumentləşmə almağa cəhd göstərirlər".

**İqtisadçı ekspert şirkətlərin mərhələli şəkildə qiymət artımına başladığını dedi:** "Hökumət qiymət artımına imkan verməmək üçün təzyiqləri artırdıqca idxalçılar prosesdə maraqlı olmur. Ona görə də bu vəziyyət uzun çəkə bilməzdi. Məhsul qıtlığı yarana bilərdi ki, bu proses artıq müəyyən qədər Azərbaycanda başlayıb. İdxal prosesinin yanvar ayı üçün çox ciddi azaldığını Dövlət Gömrük Komitəsi özü də açıqladı. Hazırda şirkətlər mərhələli şəkildə qeyri-rəsmi icazələr daxilində qiymətlərin artımı prosesinə başlayıb".

❑ Günel MANAFLI
❑ Fotolar müəllifindir

# Azərbaycanda lotereya bileti ilə milyonçu olmaq mümkündürmü?

## Satıcı: "Bir nəfər 10 min manat udmuşdu, o gedən getdi..."

**Son günlər dünya mətbuatında Amerika, Fransa, Türkiyə vətəndaşlarının lotereyalarda milyonlarla dollar qazanması haqqında məlumatlar oxuyub köks ötürürük. Gah Fransada suriyalı qaçqın bir milyon dollar əldə edir, gah da ABŞ-da kimliyi naməlum olan insan 63 milyon qazanır və bütün ölkə onu axtarır. Lotereyada əziyyətsiz qazanc əldə etmək, bir sürprizlə bütün həyatını dəyişmək hər kəsin arzusu və xəyalıdır. Arabir lotereya bileti alıb bəxtini sınayanlar da var, nə vaxtsa qazanacağına inanıb son qəpiklərini lotereyaya verənlər də. Lakin nədənsə Azərbaycanda keçirilən lotereyalarda yüz minlərlə manat məbləğində səs-küylü uduşlara çox az təsadüf olunur.**





Bəs görəsən, Azərbaycan vətəndaşlarının bəxtini sınaması üçün hansı lotereyalar var? Azərbaycan vətəndaşı ən yaxşı halda nə qədər qazana bilər?

Bu sualın izi ilə paytaxtın mərkəzi küçələrində kiçik piştaxta qoyub lotereya satışı ilə məşğul olan satıcılara üz tutduq. Lotereya biletlərini əsasən metrostansiyaların giriş-çıxışlarında fəaliyyət göstərən satıcılardan əldə etmək mümkündür.

Adının çəkilməsini istəməyən satıcı 5 cür lotereyanın oynandığını bildirdi. Bunlar "Klassik Loto", "Super Loto", "Binqo", "5/36", "6/40" lotereyalarıdır.

Bütün biletlərin qiyməti 1 manatdır və həftənin müxtəlif günlərində Azərbaycan televiziyasında və "Space TV"-də yayımlanır.

Uduşda olan "Mega Pot"un məbləği isə tiraja görə dəyişir. Məsələn, "Klassik Loto"nun son tirajının "Mega Pot"u 236 min manat, "Super Loto"nun son "Mega Pot"u isə 175 min manatdır. Lakin ən yüksək uduşlar 20-50 min arasında dəyişir. Böyük uduşlar sırasında avtomobillər də var.

Satıcı deyir ki, əvvəllər lotereya həvəskarları daha çox idi. Lakin indi "TopAz" çıxandan sonra lotereyanın "bazarı ölüb".

**7 ildir satıcı işləyən müsahibim onun təcrübəsində ən yüksək uduşun 120 min manat olduğunu bildirdi. Ən son böyük uduşun məbləğini isə satıcı belə xatırlayır:** "İki həftə əvvəl bir nəfər "Klassik Loto"dan 10 min manat uddu. Ancaq əksər uduşlar kiçik məbləğlərdə olur".

Söhbət əsnasında lotereya almaq üçün orta yaşlı bir müştəri yaxınlaşır. Bir ədəd "Klassik Loto", bir ədəd də "Binqo" alır və seçməyi də bizdən xahiş edir. Əlimiz düşərli olsun deyib, ona iki bilet "satırıq". Satıcı da bu durumdan razı görünür. Bilet alan müştəri deyir ki, hər həftə müsahibimdən bir-iki bilet alır və yaşının bu çağında bəxtinin gətirməyini, həyatının dəyişməyini gözləyir. Lakin bəxti ona hər dəfə 1-2 manatdan artıq "hədiyyə etmir". Ancaq hələ də inamını itirməyib. Deyir ki, bir dəfə bacısı 1200 manat, yaxın bir dostu isə 7 min manat udub.

Daha iki müştəriyə bilet "satırıq". Müştərilərin heç biri "Mega Pot"u qazancağına inanmır. Bəziləri isə bu oyunlara şübhə ilə yanaşırlar.

Xarici ölkələrdəkindən fərqli olaraq, "Azərlotereya"da milyonlar deyil, on minlər, yüz minlər oynanır və bir çox hallarda bu bir neçə qalib arasında bölünür. Bu səbəbdən yüksək məbləğdə uduşlar olsa da, bu məbləğ onların həyatını dəyişməyə yetərli olmur.

Lotereya biletləri satan şəxslə aramızda maraqlı dialoq da yaşanır:

**- Heç olubmu kimsə, yüksək məbləğdə uduş qazansın və ondan sizə də hədiyyə etsin?**

- Yox, bileti alanda çoxları bu sözü deyir. Ancaq udandan sonra hamısı yaddan çıxır. Bax, o gün bir nəfər 10 min manat udmuşdu, gəldi, mən də göndərdim pulu almağa. O gedən getdi, bir də buralardan keçməyib. Demək olar ki, hamısı elə olub.

**Bu yerdə müştəri söhbətə qarışır.**

- Vallah qardaş, mən udsam pulun müəyyən hissəsini sizə verəcəm.

- Yox, verməyəcəksən, mən ölüm verməyəcəksən. 7 ildir mən burada işləyirəm, 70-dən çox uduş görmüşəm, heç biri bir qəpik də verməyib. Pul şirin şeydi. Pulu görəndə fikirləşirsən ki, satıcıya verdiyim 100 manata da hansısa problemimi həll edərəm.

**Müsahibimin sözlərinə görə, yalnız bir dəfə 62 min manat udan bir nəfər ona 2 min manat hədiyyə edib:** "Bir nəfər də var idi, hər axşam məndən bir lotereya alıb evinə gedirdi. Bir dəfə 10 min manat uddu, ondan sonra mən o adamı buradan keçən görmədim. Yolunu dəyişdi".

Yayda isti, qışda şaxta demədən günün 10-12 saatını küçədə qoyduğu kiçik piştaxtanın arxasında keçirən satıcı satdığı hər biletə görə faiz alır və bütün qazancı bundan ibarət olur. Nə qədər çox bilet satsa, qazanc da bir o qədər artır. Satılmayan biletlər isə geri qaytarılır. Lotereya alanların sayı da kəskin azalıb. Əvvəllər "Klassik Loto"nun bir tirajında 150 min bilet satıldığını deyən müsahibim indi bunun 70 min civarında olduğunu deyir. Digər lotereyalardan isə hər tirajında isə 4-5 min ədəd satılır.

❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar müəllifindir

YENİ MÜSAVAT
Son səhifə
N 30 (6351) 9 fevral 2016

# Ən xoşbəxt yaş aralığı-65-79



İngiltərənin Beynəlxalq Statistika Ofisi tərəfindən aparılan araşdırmalara görə, ən xoşbəxt yaş aralığı 65 - 79 arasındadır. Həyatından ən çox şikayət edən insanlar isə 45-59 yaş arasındakı insanlardır. Xüsusilə də kişilər bu yaşlardan çox narazı olurlar. Araşdırmaçılara görə, həmin yaş dövründə kişilər həm uşaqların, həm də valideynlərin məsuliyyətini daşıyırlar. Mütəxəssislər yaşı 80-dən çox olan insanların səhhət, təklik və hər kəsdən uzaq olmaq düşüncəsi ilə xoşbəxt olmadıqlarını deyirlər. Evli insanların dullar, heç bir münasibəti olmayanlarla müqayisədə daha xoşbəxt olduğu açıqlanıb.



## 1700 metrlik qüllə tikirlər

Maraqlı texnologiya vasitələri ilə həyatımızı asanlaşdıran yaponlar indi də dünyanın ən yüksək binasını inşa etmək üçün hazırlıqlara başlayıblar. Tokio körfəzində inşa ediləcək olan 1700 metr hündürlüyə sahib olacaq olan "Sky Mile" qülləsi hazırda dünyanın ən hündür binası olan "Burc Xəlifə"dən iki dəfə hündür olacaq. Qeyri-adi qüllə 500 mindən çox insana ev sahibliyi edəcək. Sahilə yaxın yerlərdə təbii fəlakətlər tez-tez baş verdiyi üçün böyük binaların inşa edilməsinə xüsusi ehtiyac duyulduğu açıqlanıb.



## Xoşbəxt evliliyin sirləri

Həkim Meg Barker və professor Jacqui Gabb apardıqları araşdırmadan sonra xoşbəxt evliliyin bir neçə sirri olduğunu açıqlayıblar. Araşdırmada 5 mindən çox cütlük iştirak edib və xoşbəxtlik haqqında tövsiyələr veriblər. Uzun müddət davam edən araşdırmaların nəticələrinə görə xoşbəxt evliliyin sirləri aşağıdakılardır:

1. Birlikdə gülə bilmək;
2. Ortaq şeyləri paylaşmaq;
3. Yaxın dost olmaq;
4. Yoldaşınızı dəstəkləmək;
5. Güvənərək yaşamaq;
6. Xoşbəxt olmaq;
7. Hiss etmək;
8. Danışmağı və dinləməyi bacarmaq.

# Burnunuzun sirri

**Böyük burun:** Davamlı təlaş içində olan, qorxaq, ancaq yeri gələndə mərd ola bilən insan.

**Qısa burun:** Utancaq, hamı ilə yola gedə bilən, xoş xasiyyət insan.

**Uzun burun:** Qarşısındakı insanı anlamağa çalışan, humanist və xeyriyyəçi insan.

**Kiçik burun:** Təvazökar, sadə həyat tərzini sevən insan.

**Uzun və düz burun:** Qaydalara əməl edən, dürüst və sadiq insan.

**Aşağıya doğru əyilən burun:** Seçim etməkdə çətinlik çəkən, çətinliklər qarşısında əyilməyən bir insan.

**Geniş burun:** Öz dünyası olan, əliaçıq, insanlara güvənən bir insan.

**Yuxarıya meylli burun:** Özünə inanan, yeni fikirlərə açıq bir insan.

**Şahin burun:** Qeyri-adi, qaydalara əməl etməyən, üsyankar insan.

**Kəmərli burun:** Hər şeydən şübhələnən və ən yaxşısını əldə etməyə çalışan insan.

**Ağıza yaxın olan burun:** Münasibətlərdə bəxti gətirməyən, heç kimə bağlana bilməyən insan.





## Qulaqlar ürəkdəki pozulmalardan xəbər verə bilər!

1973-cü ildə həkim Sanders Frank qulaq mərcəyində büküşün ürəyin tac damarlarında aterosklerozun inkişafı ilə əlaqəli olmasına fikir verib. Daha sonra bu fenomeni "Frank əlaməti" adlandırmağa başlayıblar. Bu nə deməkdir? Həkim fikir verib ki, qulaq mərcəyində büküşü olan bir çox insanların tac damarlarında aterosklerozun inkişafı müşahidə olunur. Ateroskleroz zamanı damarların daxilində yağa bənzər maddə-xolesterin yığılır ki, bu da damarları daraldır, onların elastikliyini pozur. Şah damarlarda aterosklerozun olması infarkt kimi ağır pozulmanın inkişafının riskini xeyli artırır. Frank əlamətinin mövcudluğu 40 yaşdan aşağı olan insanlarda xüsusilə təhlükəlidir. Araşdırmalar göstərib ki, bu yaşda olan insanlarda bu əlamətin olması 80% hallarda aterosklerozdan xəbər verir. Həmçinin araşdırmalar göstərib ki, Frank əlaməti cavan kişilərdə ani ürək ölümünün xəbərçisi ola bilər. Təbii ki, Frank simptomunun olması heç də 100% hallarda ürəkdə olan ciddi problemlərə işarə etmir. Lakin risk var. Bu səbəbdən əgər siz özünüzdə Frank simptomunu müşahidə etmisinizsə, mütləq kardioloqa müraciət edin və lazım olan müayinələrdən keçin. Bununla siz öz sağlamlığınızı və hətta həyatınızı qoruya bilərsiniz.




**QOÇ** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Ulduzlar ziyarətə getməyi məsləhət görsə də, uzaq yola çıxmaq olmaz.

**XƏRÇƏNG** - Göy qübbəsi pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**ŞİR** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Bu gün qazanmaq ehtimalınız böyükdür.

**QIZ** - Qarşılıqlı münasibətlərdə güzəştli mövqe seçin. Risk tələb edən işlərə isə girişməyin. Yaxşı olar ki, soyuq və spirtli içkilərdən, duzlu qidalardan mümkün qədər uzaq olasınız.

**TƏRƏZİ** - Səhhətinizlə bağlı nasazlığı nəzərə alıb hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

**ƏQRƏB** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Səfər də mümkündür.

**OXATAN** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

**OĞLAQ** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**SUTÖKƏN** - Həddindən ziyadə uğurlu taqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq səngiməyə başlayacaq. Hətta varlanmaq ehtimalınız da var.

**BALIQLAR** - Hiss olunur ki, sizi sevməyənlər artmaqdadır. Lakin ruh düşkünlüyünə mübtəla olmaqdansa, deyildiyi kimi olmadığınızı sübut etməlisiniz. Bu gün maraqlı görüşlərdə iştirakınız gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İltihab əleyhinə təbii çay



Bu meyvəni "şimal limonu" adlandırırlar. Zirinc bir çox faydalı xüsusiyyətlərə malikdir.

- İltihab əleyhinə təsir edir.
- Mikrobları öldürür.
- İmmun sistemini möhkəmləndirir.
- Arterial təzyiqi aşağı salır.
- İştahanı artırır.
- Qanda şəkərin səviyyəsini aşağı salır.
- Orqanizmə şiş əleyhinə təsir edir.
- Revmatik ağrıları azaldır.

Zirinc çayı hazırlamaq üçün 1 çay qaşığı quru zirinc 1 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmlənilir və gün ərzində 2 dəfə 1/2 stəkan olmaqla yeməkdən əvvəl içilir. Çaya 1 çay qaşığı bal əlavə etdikdə onun faydalı xüsusiyyətləri daha da artır. Bu çayı soyuqdəymə xəstəlikləri, angina, revmatik ağrılar zamanı qəbul etmək yaxşıdır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300